8 dekabr 2023 №91 (2060) www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## Bizə Ermənistanda revanşizmin olmayacağı barədə qəti zəmanət lazımdır



İkinci Qarabağ müharibəsinin bitməsindən sonrakı 3 il ərzində mən ictimai şəkildə bəyan edirdim ki, biz Qarabağda yaşayan erməniləri öz vətəndaşımız hesab edirik. Biz düşünürük ki, onlar separatçıların liderləri tərəfindən manipulyasiya edilirlər. Biz onlara həmin ərazidə qalmaq və yaşamağa davam etmək üçün şərtlərimizi təklif etdik. Dediyim kimi, bu, tamamilə beynəlxalq hüquqa uyğun idi. Onların edəcəkləri yeganə iş Azərbaycan vətəndaşlığı üçün müraciət etmək idi.

Prezident İlham Əliyev bu sözləri dekabrın 6-da ADA Universitetinin və Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin birgə təşkilatçılığı ilə keçirilən "Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər" forumunda çıxışı zamanı deyib.

*davamı səh. 2-də*

## Fevralın 7-də növbədənkənar prezident seçkiləri keçiriləcək

Azərbaycanda növbədənkənar prezident seçkiləri elan edilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 7-də bununla bağlı sərəncam imzalayıb.

Sərəncamda Mərkəzi Seçki Komissiyasına növbədənkənar prezident seçkilərinin 2024-cü il fevralın 7-nə təyin olunmasını və Azərbaycan Respublikasının Seçki Məcəlləsində müəyyən edilmiş qaydada keçirilməsini təmin etmək tapşırılıb.

## Etimad yolunda ciddi addım

### Bakı və İrəvandan qarşılıqlı jestlər

Dekabrın 7-də Azərbaycan Respublikası Prezidentinin Administrasiyası və Ermənistan Respublikası Baş nazirinin Aparatı birgə açıqlama yayıb. Açıqlamada deyilir:

Azərbaycan Respublikası və Ermənistan Respublikası regionda çoxdan gözlənilən sülhün əldə olunması üçün tarixi fürsətin yarandığı fikrini bölüşür. İki ölkə münasibətləri normallaşdırmaq, suverenlik və ərazi bütövlüyü prinsiplərinə hörmət əsasında sülh sazişinə nail olmaq niyyətini bir daha təsdiq edir.

Azərbaycan Respublikası Prezidentinin Administrasiyası və Ermənistan Respublikası Baş nazirinin Aparatı arasında aparılmış danışıqlar nəticəsində iki ölkə arasında etimad quruculuğu istiqamətində ciddi addımların atılmasına dair razılıq əldə olunub.

Humanizm dəyərlərini rəhbər tutaraq və xoşməramlı addım olaraq, Azərbaycan Respublikası 32 erməni hərbçini azad edir.

Ermənistan Respublikası öz növbəsində humanizm dəyərlərini rəhbər tutaraq və xoşməramlı addım olaraq, 2 azərbaycanlı hərbçini azad edir.

Xoş niyyətin təzahürü olaraq, Ermənistan Respublikası BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına Tərəf Dövlətlərin 29-cu Konfransına (COP29) ev sahibliyinə öz namizədliyini geri götürərək Azərbaycan Respublikasının namizədliyini dəstəkləyir. Azərbaycan Respublikası və Ermənistan Respublikası ümid edirlər ki, Şərqi Avropa Qrupuna daxil olan digər ölkələr də Azərbaycanın namizədliyini dəstəkləyəcək. Xoş niyyətin təzahürü olaraq, Azərbaycan Respublikası Ermənistanın Şərqi Avropa Qrupundan COP-un Büro üzvlüyünə namizədliyini dəstəkləyir.

Azərbaycan və Ermənistan yaxın gələcəkdə əlavə etimad quruculuğu tədbirlərinin həyata keçirilməsi üçün müzakirələri davam etdirəcəklər və beynəlxalq ictimaiyyəti iki ölkənin qarşılıqlı etimadın yaradılmasına töhfə verəcək, bütün Cənubi Qafqaz regionuna müsbət təsir göstərəcək səylərini dəstəkləməyə çağırırlar.

***

Ermənistana qaytarılması nəzərdə tutulan 32 nəfər (26 nəfər 2020-ci ilin dekabrında Hadrut istiqamətində keçirilmiş antiterror tədbirləri zamanı həbs edilmiş şəxslər, qalan 6 nəfər müxtəlif vaxtlarda sərhəddə saxlanılmış şəxslər) artıq cəzalarının böyük hissəsini çəkiblər. AZƏRTAC xəbər verir ki, siyahıya Azərbaycan xalqına qarşı müharibə cinayətləri və bəşəriyyət əleyhinə cinayətlər törətmiş qondarma rejimin rəhbərləri Araik Arutunyan, Bako Saakyan, Arkadi Qukasyan, Ruben Vardanyan, eləcə də Vaqif Xaçaturyan, Alyoşa Xosrovyan kimi şəxslər daxil deyil.

Bu addım Prezident İlham Əliyevin Azərbaycan insanına, ölkə vətəndaşlarına, hərbçilərə verdiyi dəyərin, əsirlikdə olan şəxslərin yaxınlarının hisslərinə şərik olmasının bariz nümunəsidir.

## Azərbaycan dünyanın mədəni irs xəzinəsini zənginləşdirir

### UNESCO-nun siyahılarında qeyri-maddi mədəni irs nümunələrimizin sayı 23-ə çatıb

Xəbər verdiyimiz kimi, 4-9 noyabr tarixlərində Botsvananın Kasane şəhərində UNESCO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəsinin 18-ci sessiyası keçirilir.

Azərbaycan nümayəndə heyətinin də iştirak etdiyi sessiyada təşkilatın qeyri-maddi mədəni irs üzrə müvafiq siyahılarına təqdim edilən yeni elementlər də nəzərdən keçirilir.

Dekabrın 6-da Azərbaycanın qeyri-maddi mədəni irsi ilə bağlı daha 4 element Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrsinin Reprezentativ Siyahısına daxil edilib.

Reprezentativ siyahıya salınan nominasiyalardan ikisi Azərbaycan və Türkiyənin birgə təqdim etdiyi "Balaban sənətkarlığı və ifaçılıq sənəti" və "Sədəf sənətkarlığı", digər ikisi isə "Təzhib sənəti" (Azərbaycan, İran, Tacikistan, Türkiyə, Özbəkistan), "İftar və onunla bağlı sosial-mədəni ənənələr" (Azərbaycan, İran, Türkiyə, Özbəkistan) çoxmillətli fayllarıdır.

UNESCO-nun Qiymətləndirici Orqanı tərəfindən bütün meyarlara dair müsbət rəy alan nominasiya fayllarına dair müvafiq qərar elan edilib.













Sessiyada çıxış edən ölkəmizin UNESCO yanında daimi nümayəndəsi səfir Elman Abdullayev Azərbaycan Respublikası adından UNESCO Qiymətləndirmə Orqanına və Hökumətlərarası Komitəyə xalqımızın mədəni dəyər nümunələrini dəstəklədiklərinə görə təşəkkür edib. Daimi nümayəndə eyni zamanda faylların hazırlanmasında iştirak edən ölkələrə də öz minnətdarlığını bildirib.

Adıçəkilən nominasiya faylları Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi tərəfindən Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikasının UNESCO yanında Daimi Nümayəndəliyi və UNESCO üzrə Milli Komissiya, eləcə də qeyd olunan xarici ölkələrin müvafiq qurumları ilə əməkdaşlıqda ərsəyə gətirilib.

Bununla UNESCO siyahılarında Azərbaycanın qeyri-maddi mədəni irsi ilə bağlı elementlərin sayı 23-ə çatıb. Onlardan 21-i Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrsinin Reprezentativ Siyahısında, 2-si isə Təcili Qorunmaya Ehtiyacı olan Qeyri-Maddi Mədəni İrs Siyahısındadır.

*davamı səh. 2-də*

## Moldovada Azərbaycan Mədəniyyəti Günləri



Moldovada Azərbaycan Mədəniyyəti Günləri keçirilir. Tədbirlər çərçivəsində dekabrın 6-da ölkəmizin Kişineudakı səfirliyinin önündəki bağçada dünya şöhrətli müğənni Müslüm Maqomayevin barelyefinin açılış mərasimi keçirilib.

### Kişineudakı səfirliyimizin önündəki bağçada Müslüm Maqomayevin barelyefi açılıb

Mərasimdə Azərbaycan ilə Moldova arasında iqtisadi inkişaf üzrə hökumətlərarası komissiyanın həmsədrləri – Moldovanın infrastruktur və regional inkişaf naziri Andrey Spınu və Azərbaycanın kənd təsərrüfatı naziri Məcnun Məmmədov, eləcə də Moldovanın mədəniyyət naziri Sergiu Prodan, Azərbaycan mədəniyyət nazirinin müşaviri Oleq Əmirbəyov, digər rəsmilər iştirak ediblər. Tədbirə Moldovadakı Azərbaycan diasporunun təmsilçiləri, ictimaiyyət nümayəndələri də qatılıblar.

Tədbir iştirakçıları əvvəlcə Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin səfirliyin önündəki bağçada ucaldılmış büstü önünə gül dəstələri düzüblər.

Səfir Qüdsi Osmanov bildirib ki, görkəmli müğənni Müslüm Maqomayevin barelyefi Azərbaycan xalqının tarixində parlaq iz qoymuş digər tanınmış şəxsiyyətlərin barelyefləri ilə yanaşı səfirliyin önündəki bağçada öz layiqli yerini tutub: "Bu barelyef Moldovada Müslüm Maqomayevin xatirəsini əbədi olaraq yaşadacaq".

*davamı səh. 2-də*

## Qərbi Azərbaycan əsilli rəssamların əsərlərindən ibarət sərgi

Dekabrın 7-də Rəssamlar İttifaqının Vəcihə Səmədova adına sərgi salonunda Qərbi Azərbaycan əsilli rəssamların əsərlərindən ibarət sərgi açılıb.



Açılış mərasimində dövlət və hökumət nümayəndələri, Qərbi Azərbaycandan olan ziyalılar, elm və incəsənət xadimləri iştirak ediblər.

Rəssamlar İttifaqının və Qərbi Azərbaycan İcmasının təşkilatçılığı ilə keçirilən sərgidə Xalq rəssamları Hüseyn Əliyev, Kamil Əliyev, Arif Qazıyev, İsmət Axundov, Əməkdar rəssamlar Rza Avşarov, İsa Məmmədov, Nağdəli Xəlilov, Sabir Hüseynov, Saleh Məmmədov, Akif Quliyev, Xuday İbrahimov, Pərvin Quliyeva, Sevil Əhmədova, Əli İsmayıl – ümumilikdə 25 müəllifin 40-dək rəngkarlıq və rəsm əsəri nümayiş olunur.

İttifaqın sədri Xalq rəssamı Fərhad Xəlilov belə bir sərginin keçirilməsinin əhəmiyyətini vurğulayıb.

Qərbi Azərbaycan İcması idarə heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli bildirib ki, etnik təmizləməyə məruz qalmış yüz minlərlə azərbaycanlının öz tarixi torpaqlarına qayıtmaq hüququnun beynəlxalq səviyyədə tanıdılması böyük önəm daşıyır. O diqqətə çatdırıb ki, Qərbi Azərbaycan incəsənətinin ən maraqlı nümunələri divar rəngkarlığı sahəsində öz əksini tapıb. Qərbi Azərbaycan əsilli rəssamların yaradıcılığında Vətənə məhəbbət əsas mövzulardan biridir. Sərgidə nümayiş olunan əsərlər mövzu etibarilə Vətənin gözəlliyini, tarixi abidələrini, insanların mənəvi saflığını özündə əks etdirir.

## Ekran və səhnəmizin bənzərsiz siması

9 dekabr görkəmli teatr və kino aktyoru, Xalq artisti, Dövlət mükafatı laureatı Lütfəli Abdullayevin (1914 – 1973) anım günü və vəfatının 50-ci ildönümüdür.



Gülüş ustası kimi tanınan sənətkar 1938-ci ildə Musiqili Komediya Teatrında səhnə fəaliyyətinə başlayıb. Teatr fəaliyyətini dayandırdığı müddətdə Dövlət Dram Teatrında çalışıb, burada bir sıra maraqlı obrazlar yaradıb. 1956-cı ildə işi bərpa olunan Musiqili Komediya Teatrına qayıdan aktyor əksər tamaşalarda çıxış edib.

L.Abdullayev kino aktyoru kimi də böyük şöhrət qazanıb. "Arşın mal alan", "Əhməd haradadır?", "Ulduz", "Qəribə əhvalat" və digər filmlərdə yaratdığı maraqlı obrazlarla tamaşaçıların yaddaşında silinməz iz qoyub.

Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə 2014-cü ildə L.Abdullayevin 100 illik yubileyi dövlət səviyyəsində qeyd edilib.

"Sədalansın muğamatım" adlı musiqi axşamı



*səh. 3*

Xalq artisti Tamilla Şirəliyeva: "Baletdə qurbansız, fədakarlıq etmədən uğur qazanmaq mümkün deyil"

*səh. 7*



Məcnun obrazında ilk dəfə...

*səh. 3*

№91 (2060)
8 dekabr 2023
www.medeniyyet.az




# Bizə Ermənistanda revanşizmin olmayacağı barədə qəti zəmanət lazımdır

## Bu müddəa sülh sazişində əksini tapmalıdır

*əvvəli səh. 1-də*

Dövlət başçısı bildirib ki, Qarabağda yaşayan ermənilərin hüquqları və təhlükəsizliyi məsələləri də nəzərə alınmışdı. Biz dəfələrlə demişdik ki, onların təhlükəsizliyi Azərbaycanın Konstitusiyasına uyğun və beynəlxalq təşkilatlar qarşısındakı öhdəliklərimizə əsasən təmin ediləcək: "Proses uzun çəkdi və dərk etdik ki, bizim və Qarabağda yaşayan ermənilər arasında bir növ sədd var. Bilmirəm, bu sədd Ermənistan hökuməti və ya separatçılar tərəfindən yaradılıb. Daha sonra qərara gəldik ki, danışmağa başlamaq lazımdır və mən parlamentin üzvü olan bir nəfəri Prezidentin xüsusi nümayəndəsi təyin etdim və onun vəzifəsi Qarabağ erməniləri ilə danışmaqdan ibarət idi. Biz hətta ilk görüşün Rusiya sülhməramlılarının o zaman hələ də işğal altında olan Xocalıdakı bazasında keçirilməsinə razılıq verdik. Bu görüş baş tutdu. Həmin ilk görüşdə biz onlara təklif etdik ki, qalsınlar və inteqrasiya etsinlər. Mənim dəfələrlə istifadə etdiyim reinteqrasiya sözü istehza ilə qarşılandı, həm Ermənistan hakimiyyəti, həm də separatçılar tərəfindən. Həmin separatçılar ki, bu gün təcridxanada verdikt gözləyirlər. Biz təklif etdik ki, ikinci görüş Yevlax şəhərində keçirilsin, o, Qarabağa yaxın, maşınla birsaatlıq məsafədə yerləşir və bu görüşlər müntəzəm olsun. Təəssüflər olsun ki, Qarabağ erməniləri, yəni özlərini lider hesab edənlər bundan imtina etdilər. Bir neçə dəfə, ən azı iki dəfə biz ictimai şəkildə bəyan etdik ki, onları dəvət edirik, lakin onlar bundan imtina etdilər.

Beləliklə, heç bir təmas yox idi. Onlar heç bizimlə danışmaq istəmirdilər. Daha sonra biz digər kanallardan istifadə etmək qərarına gəldik. Biz bunu bəyan etdik və reinteqrasiya ilə bağlı təklifimizi açıqladıq. Bu məlumat dərc edilib, siz onu tapa bilərsiniz. Hər kəs onunla tanış ola bilər. Biz reinteqrasiyaya dair elektron portal yaratdıq ki, orada Azərbaycan vətəndaşlığını almaq istəyən hər kəs qeydiyyatdan keçə bilər. Onlara təklif etdiyimiz bütün hüquqlarla bağlı əlavə məsləhətləşmələr də aparılacaqdı. Onlara təklif etdiklərimizin hamısı tamamilə qəbuledilən idi və ən yaxşı təcrübəyə əsaslanırdı – milli azlıqlarla bağlı Avropa Konvensiyası, dil ilə bağlı Avropa Konvensiyası, ana dilində təhsil, dini hüquqlar, mədəni hüquqlar, bələdiyyə hüquqları. Onlara bələdiyyə seçkiləri vasitəsilə nümayəndələrini seçmək təklif edildi. Biz onlara mesaj verdik ki, 2024-cü ildə bələdiyyə seçkiləri keçiriləcək və onlar iştirak edə bilərlər. Onlar öz nümayəndələrini seçə bilərlər ki, öz bələdiyyələrinin rəhbərləri olsun.

Bundan başqa biz nə təmin etməli, nə təklif etməli idik? Bu, maksimum idi və hər şey tam şəffaf idi. Bu təklif vasitəçi olmaq istəyən ölkələrin paytaxtlarına göndərildi. Yəni, Avropa İttifaqı, Brüssel və Vaşinqton. Biz bunu tam şəffaf şəkildə etdik. Onlar yox cavabı verdilər. Bilirsiniz onlar nə zaman görüşməyə razılıq verdilər? Yalnız sentyabrın 20-dən sonra. Sentyabrın 20-də biz suverenliyimizi bərpa etmək üçün artıq güc tətbiq etməli olandan sonra onların nümayəndələri Yevlaxa gəldilər. Onlar bir dəfə deyil, iki dəfə gəldilər. Sual yaranır ki, bəs niyə o vaxta qədər gəlmirdilər? Onlar əvvəl gəlmiş olsaydılar, antiterror əməliyyatına ehtiyac olmazdı. Yəni, bu tarixdir, yaxın tarix".

### "Qayıtmaq istəyənlər məlum mexanizmdən istifadə edə bilərlər"

Prezident daha sonra deyib: "İndi isə vəziyyət necədir? Bu gün o təklif masa üzərindədir. Elektron portalımız fəaliyyət göstərir. Artıq bir neçə Qarabağ ermənisindən müraciət daxil olub. Onların bəziləri orada qalıb yaşamağa üstünlük verir. Biz Dövlət Miqrasiya Xidmətinin, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin nümayəndələrini təyin etmişik ki, orada rahatlığını təmin edə bilməyənlərə yardım göstərsinlər. Çünki bu gün həmin ərazidə sosial agentlik tərəfindən müdafiəyə ehtiyac var – qida, istilik və yaşayış üçün digər şəraitlə təmin olunmaq lazımdır. Deyə bilərəm ki, qalanların sayı çox deyil. Lakin qalanların qeydinə qalınır. Qayıtmaq istəyənlər isə sizə artıq məlumat verdiyim mexanizmdən istifadə edə bilərlər".

Azərbaycanın bundan sonra Ermənistanla sülh prosesi və Cənubi Qafqaza sülh gətirilməsi istiqamətində addımları ilə bağlı sualına cavabında İlham Əliyev vurğulayıb ki, biz sülhü müharibə ilə gətirdik: "Hərbi yolla sülhə necə nail olmaq olar? Uzun illər danışıqlar və işğal zamanı mən Minsk qrupunun həmsədrlərindən eşidirdim, onlardan üçü bir ağızdan qeyd edirdilər ki, münaqişənin hərbi yolla həlli yoxdur. Belə məlum oldu ki, onların hər üçü səhv edirdi. Dövlətçilik tarixinə, geniş beynəlxalq təcrübəyə, BMT Təhlükəsizlik Şurasının daimi üzvü olmasına baxmayaraq, onlar yanılırdılar. Düşünürəm ki, ya sadəcə, yanlış qiymətləndirdiklərinə görə yanılırdılar, ya da bu, Azərbaycana bir növ mesaj idi ki, siz sülh ssenarisindən başqa ssenariyə əl atsanız, uğur qazana bilməyəcəksiniz. Biz sübut etdik ki, münaqişənin hərbi yolla həlli var. Beləliklə, münaqişə həll olundu...

Otuz ildir işğala, dağıntılara, etnik təmizləməyə, soyqırımına məruz qalan və ərazisinin tamamilə dağıdılmasından əziyyət çəkən bir ölkə torpaqlarını beynəlxalq vasitəçilər olmadan məhz özü azad etdikdən dərhal sonra özü sülh təklif edib. Ermənistana sülh təklif edən biz idik. Biz – Azərbaycan tərəfi bildirdik ki, sülh sazişi imzalamalıyıq. "Delimitasiya ilə bağlı komissiyalarımız olmalıdır" dedik. Ermənistan deyil, Brüssel deyil, Vaşinqton, Paris və ya Moskva deyil, bunu deyən biz idik. Proses məhz belə başladı. Sonra gördük ki, heç nə baş vermir. Beləliklə, biz sülh sazişinin prinsiplərini işləyib hazırlamaq qərarına gəldik. Onları işləyib Ermənistana göndərdik. Sonra yenə sükut oldu və biz bunu ictimailəşdirdik. Beləliklə, biz o məşhur beş prinsipi açıqladıq ki, Ermənistan indi onları qəbul etməyə daha hazır görünür...".

### Ermənistanın bəzi Avropa paytaxtlarında çox pis məsləhətçiləri var

Prezident diqqətə çatdırıb ki, son aylar tərəflər arasında sülh sazişi layihəsi ilə bağlı beş-altı şərh mübadiləsi aparılıb: "Bu sülh sazişinin nə olduğu haqqında daha ətraflı məlumat vermək üçün deyim ki, bu, 20-dən az maddədən ibarət maksimum altı-yeddi səhifəlik bir sənəddir. Beləliklə, belə kiçik bir sənədə Ermənistana bizə cavab vermək üçün 70 gün vaxt lazım olub və onlar yalnız Azərbaycanın xarici işlər naziri bunu açıqlayandan sonra ("İki aydır gözləyirik, niyə cavab vermirsiniz?" deyəndən sonra) cavab verdilər.

Deməli, bu onu göstərir ki, bu prosesi gecikdirən tərəf Azərbaycan deyil, Ermənistandır. Niyə gecikdirdilər? Bunu bilmirəm. Bu, onların öz qərarı idi, yoxsa bəzi Avropa paytaxtlarında yeni dostları tərəfindən məsləhət görülüb? Bunu bilmirəm, yalnız ehtimal edə bilərəm. Amma fakt budur ki, sentyabrın 11-də göndərdiyimiz şərhlərə cavabı noyabrın 21-də aldıq. İndi Xarici İşlər Nazirliyimiz həmin şərhləri nəzərdən keçirir və biz onu geri göndərəcəyik. Düşünürəm ki, bundan sonra xarici işlər nazirlərinin görüşü məqsədəuyğun olacaq. Çünki indi görürük ki, biz hələ də konsensusa yaxın deyilik, amma Ermənistanın əvvəldən təkid etdiyi bir çox mühüm məsələlər artıq mövcud deyil. Onlar, ümumiyyətlə, mövcud deyil və şərhlərində də yoxdur... Düşünürəm ki, indi biz daha bir addım atırıq. Amma yenə də Azərbaycan təşəbbüskar ölkə olub, Azərbaycan faktiki olaraq öz iradəsini nümayiş etdirən ölkə olub və ümid edirəm ki, razılığa gəlmək çox vaxt aparmayacaq".

Prezident vurğulayıb ki, mövcud vəziyyətdə Azərbaycana Ermənistanda heç bir revanşizm cəhdlərinin olmayacağı ilə bağlı qəti şəkildə, təsdiqlənmiş zəmanət lazımdır: "Bu, bizə niyə lazımdır? Çünki biz Ermənistanda nə baş verdiyini bilirik və həmçinin bilirik ki, Ermənistanın bəzi Avropa paytaxtlarında çox pis məsləhətçiləri var... Hələlik bunlar təxribatçı məsləhətlərdir, lakin onların dağıdıcı məsləhətlərə çevriləcəyini istisna etmirik. Deməli, iki ölkə arasında daha müharibə olmayacağına, Ermənistanın vəziyyətlə tam razılaşdığına və Azərbaycanın ərazi bütövlüyü ilə bağlı dediklərini həqiqətən nəzərdə tutduğuna dair zəmanətimiz olmalıdır. Onlar keçmiş "dağlıq qarabağ respublikası"nı unutmalı, sərhədin delimitasiyası məsələsində konstruktiv olmalıdırlar. Əsl sülh məhz budur.

İmzalanacaq sənəd şübhəsiz ki, əhəmiyyət kəsb edir, amma bizim üçün xüsusilə də 30 ildir ermənilərin torpaqlarımızın bir santimetrini belə azad etmək istəməməsindən sonra vacibdir. 2019-cu ildə Xankəndidə "Qarabağ Ermənistandır və nöqtə" deyəndə prezident olan əvvəlki Qarabağ klanının liderləri yox, Paşinyanın özü nə demək istəyirdi? Heç kim ona bu sualı vermirdi. Onun müdafiə naziri 2019-cu ildə də Azərbaycanı işğalla hədələyən "yeni ərazilər uğrunda yeni müharibə olacaq" deyəndə bu, Köçəryan-Sarkisyan qruplaşması deyildi. Bu, Paşinyan idi, o idi. İndi o, "Qarabağ Azərbaycandır!" deyir. Ona görə deyir ki, çünki biz müharibədə qalib gəlmişik, ideologiyasını dəyişdiyi üçün yox. İdeologiya eynidir. Onlar hələ də bu ideologiya ilə yaşayırlar. Ermənistan iqtidarı ilə müxalifətin fərqi yalnız ondan ibarətdir ki, Ermənistan hökuməti aydın başa düşür ki, əgər onlar bizim ərazi bütövlüyümüzə qarşı çıxmağa davam etsələr, arxasında kimin durmasından asılı olmayaraq, biz onları yenidən əzəcəyik, onların arxasında kimin dayanmasından və ya o məşhur, gözəl Avropa paytaxtında kimin onlara nə deməsindən asılı olmayaraq. Müxalifət bunu istəyir, çünki Paşinyanı devirmək istəyirlər. Onlar bunun baş verməsini istəyirlər. Onlar istəyirlər ki, o, bu səhvi etsin, sonra hakimiyyətə gəlsinlər. Deməli, bizim gözümüzlə görə biləcəyimiz zəmanətlər lazımdır. Bu, Qafqazda sülh üçün ən yaxşı amil olacaq...".

### "Azad edilmiş ərazilərdə yeni idarəçilik modelini sınaqdan keçiririk"

Dövlət başçısı azad edilmiş ərazilərin bərpası ilə bağlı danışarkən diqqətə çatdırıb ki, biz burada həmçinin yeni idarəçilik modelini sınaqdan keçiririk: "Prezidentin xüsusi nümayəndələr institutunu yaratmışıq. Bu vaxta qədər dörd nümayəndə var. Onların sayı daha çox olacaq. Bu, tamamilə yeni idarəçilik üsuludur və həmin müsbət təcrübə, ola bilsin, ölkənin qalan hissəsində də tətbiq edilsin. Texnoloji inkişaf, ekoloji baxımdan münbit biznes mühiti – bütün bunlar tətbiq ediləcək. Bir sözlə, bizim həmin planlarımız artıq var. Hələ onları kağız üzərinə köçürməmişik, çünki biz əsasən keçmiş məcburi köçkünlərin əsas hissəsini qaytarmalıyıq və bu, Azərbaycanın qalan hissəsinin yenidən qurulmasına və inkişafına dair yol xəritəsi olacaq".

Prezident qeyd edib ki, Qarabağ və Şərqi Zəngəzuru yaşıl enerji zonası kimi elan etdikdən sonra növbəti addım Naxçıvan Muxtar Respublikasında atıldı. Hazırda biz Naxçıvanda 1500 bərpaolunan enerji mənbəyinin tikintisi planını tərtib etmişik: "Biz Naxçıvan Muxtar Respublikası üçün xüsusi dövlət inkişaf proqramını qəbul etmişik. Həmin proqram bir növ "Böyük Qayıdış" adlanan Qarabağ və Şərqi Zəngəzur proqramına bənzəyir. Biz Qarabağda şəhərsalmanın planlaşdırılmasına kömək etmiş beynəlxalq şirkətləri eyni işləri Naxçıvanda da görməsi üçün artıq seçmişik. Mövcud şəhər infrastrukturunu nəzərə alaraq, bu addım atılır, çünki coğrafi və mədəni baxımdan Qarabağ, Zəngəzur və Naxçıvan müəyyən dərəcədə eyni bölgəyə aiddir. Onların coğrafi və mədəni mühiti, demək olar ki, eynidir. Bu, Azərbaycan ərazisinin böyük hissəsini əhatə edəcək və bütövlükdə Azərbaycanın dörddəbir hissəsini, eləcə də ölkənin qalan hissəsini təşkil edəcək. Həmin yenidənqurma iqtisadi inkişafa, məşğulluğa, əmək qüvvəsinin yerdəyişməsinə təkan verəcək. Bu, həmçinin əhalisi artan Bakı və Sumqayıt kimi şəhərlər üçün vacibdir. Onun çoxtərəfli müsbət təsiri olacaq. Lakin bir daha, birinci yerdə keçmiş məcburi köçkünlər və onların həyatı, onların yurdları və həyat tərzi, öz torpaqlarında layiqli yaşaması məsələsi dayanır...".

# Azərbaycan dünyanın mədəni irs xəzinəsini zənginləşdirir

*əvvəli səh. 1-də*

Xatırladaq ki, ötən il Mərakeşin paytaxtı Rabatda keçirilən UNESCO Hökumətlərarası Komitəsinin 17-ci sessiyasında da Azərbaycanla bağlı 4 qeyri-maddi mədəni irs elementi təşkilatın reprezentativ siyahısına salınmışdı. Bunlar Azərbaycanın pəhləvanlıq sənəti ilə bağlı milli nominasiyası və ölkəmizin iştirakı ilə təqdim olunan daha üç nominasiya (çay mədəniyyəti, Molla Nəsrəddin lətifələri və baramaçılıq-ipəkçilik sənəti) idi.

Azərbaycanla yanaşı qardaş Türkiyə də dünyanın mədəni irs xəzinəsinin zənginləşməsinə töhfələr verir. UNESCO Hökumətlərarası Komitəsinin 18-ci sessiyasında Türkiyənin UNESCO-nun qeyri-maddi mədəni irs üzrə siyahılarındakı nümunələrinin sayı 30-a çatıb. Ötən il bu rəqəm 25 idi.

Bununla bağlı Türkiyənin Xarici İşlər Nazirliyi açıqlama yayıb. Açıqlamada deyilir: "Türkiyənin koordinatorluğu ilə Azərbaycan, İran, Özbəkistan və Tacikistanla birgə təqdim olunan "Təzhib sənəti", İranın koordinatorluğu ilə Türkiyə, Azərbaycan və Özbəkistan ilə birgə hazırlanan "İftar və onunla bağlı sosial-mədəni ənənələr", Azərbaycanın koordinatorluğu altında Türkiyə ilə birlikdə təqdim edilən "Balaban sənətkarlığı və ifaçılıq sənəti" və Türkiyənin koordinatorluğu ilə Azərbaycanla birgə təqdim olunan "Sədəf sənəti" başlıqlı çoxmillətli nominasiyalar üzrə namizədlik nümunələri Botsvananın Kasane şəhərində keçirilən Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitənin 18-ci sessiyasında UNESCO-nun çoxmillətli nominasiyalar üzrə Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrsinin Reprezentativ Siyahısına daxil edilib".

Əlavə edək ki, sessiyada Türkiyənin təqdim etdiyi "Zeytun yetişdirilməsi ilə bağlı ənənəvi biliklər, üsullar və təcrübələr" nominasiyası Təcili Qorunmaya Ehtiyacı olan Qeyri-Maddi Mədəni İrs Siyahısına daxil edilib.

UNESCO-da qeydə alınan qeyri-maddi mədəni irs elementlərinin sayına görə birinci yerdə yenə Çin Xalq Respublikasıdır – 43 nümunə. Yeri gəlmişkən, bu il Çin tərəfdən yeni element təqdim edilməyib. İkinci sırada isə, qeyd etdiyimiz kimi 30 elementlə Türkiyədir.

Ötən il ikinci (26 element) olan Fransa bu il siyahıya daha 2 nominasiya əlavə etsə də (cəmi 28 element), üçüncü yerə keçib.




UNESCO sıralamasında dördüncü yerdə 25 elementlə İspaniya, beşinci yerdə 24 elementlə qonşu İrandır. Azərbaycan isə 23 elementlə altıncı sıradadır.

Qeyd edək ki, UNESCO Hökumətlərarası Komitəsinin 18-ci sessiyasında müvafiq siyahılara ümumilikdə 55 element daxil edilib. O cümlədən Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrsinin Reprezentativ Siyahısına 45 nominasiya, Təcili Qorunmaya Ehtiyacı olan Qeyri-Maddi Mədəni İrs Siyahısına 6 nominasiya, bizim üçün hələlik yeni olan Bəşəriyyətin Ən Yaxşı Mühafizə Təcrübəsi Reyestrinə (Humanity Register of Good Safeguarding Practices) isə 4 nominasiya salınıb.

Xatırladaq ki, ötən il UNESCO siyahıları ümumilikdə 48 elementlə zənginləşmişdi.

Bu il reprezentativ siyahıya salınan nümunələr arasında Türkmənistanın "Axaltəkə atçılıq sənəti və atların bəzədilməsi ənənələri", "Özbəkistanda keramika sənəti", Qırğızıstanın "Eleçek, qırğız qadın baş geyimləri: ənənəvi biliklər və rituallar", eləcə də bədnam qonşumuzun "Gümrüdə dəmirçilik ənənəsi" elementləri də var.

Hazırda UNESCO-nun müvafiq siyahılarında 145 ölkənin ümumilikdə 730 irs elementi var. Müqayisə üçün deyək ki, 2022-ci ildə bu statistika 140 ölkə və 678 element idi.

**V.Orxan**

# "Bu hadisə sənət salnaməmizə əbədi həkk olundu..."

Mədəniyyət Nazirliyi tərəfindən balabanın Azərbaycana məxsusluğu ilə bağlı UNESCO-ya bir neçə məktub ünvanlanmışdı. Balaban ifaçısı kimi mən də bu quruma dəfələrlə məktubla müraciət etmişəm. Nəhayət, UNESCO bu həqiqəti qəbul etdi.

Bu fikirləri "Balaban sənətkarlığı və ifaçılıq sənəti"nin UNESCO-nun Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrsinin Reprezentativ Siyahısına salınması ilə bağlı qəzetimizə açıqlamasında tanınmış balaban ifaçısı, Xalq artisti Əlixan Səmədov dedi.

Musiqiçi qeyd etdi ki, Türkiyədə ney aləti ilə bağlı təzadlı fikirlər mövcud idi. Artıq bu alətin adı ney-balaban kimi sabitləşib. Qardaş ölkənin bütün konservatoriyalarında təzəlikdə ney-balaban bölümləri fəaliyyətə başlayıb: "Bu işdə, az da olsa, payım varsa, çox sevinirəm. Bu hadisə bizim mədəni irs salnaməmizə əbədi həkk olundu. Bununla artıq bədnam qonşularımıza tutarlı cavab verilmiş oldu".

***

Tanınmış sədəf ustası Zöhrab Mürsəlov "Sədəf sənətkarlığı" nominasiyasının UNESCO-nun Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrsinin Reprezentativ Siyahısına daxil edilməsini böyük sevinc hissi ilə qarşılayıb: "Sədəf sənəti yaşadılmalı, nəsilsən-nəslə ötürülməlidir. Uzun illərdir bu sahədə çalış insan kimi sədəf sənətinin dünya miqyasında tanınması, UNESCO-da qəbul edilməsi xəbəri məni hədsiz sevindirdi. İnanıram ki, bundan sonra sədəf sənətinə yaradıcı sənaye kimi daha böyük diqqət və qayğı ilə yanaşılacaq".

**Lalə**

# Moldovada Azərbaycan Mədəniyyəti Günləri

*əvvəli səh. 1-də*

Moldovanın mədəniyyət naziri Sergiu Prodan Kişineuda dünyaca məşhur müğənni və bəstəkar Müslüm Maqomayevin barelyefinin açılışını mühüm mədəniyyət hadisəsi adlandırıb. O, ölkələrimizin dostluğunun rəmzi olan səfirliyin önündəki bağçanı paytaxtın ən gözəl guşələrindən biri kimi qiymətləndirib.

Azərbaycanın kənd təsərrüfatı naziri Məcnun Məmmədov tədbirə toplaşanları barelyefin açılışı münasibətilə təbrik edib. Vurğulayıb ki, səfirliyin önündəki bağça hər kəsin Azərbaycanın tarixinə və mədəniyyətinə toxuna biləcəyi məkandır.

***





Sonra Kişineunun Orqan zalında Azərbaycan muğam ifaçılarının konserti olub.

Tədbirin rəsmi hissəsində Moldovanın mədəniyyət naziri Serjiu Prodan və Azərbaycan mədəniyyət nazirinin müşaviri Oleq Əmirbəyov çıxış ediblər.

Gecədə Azərbaycan xalq mahnıları və muğam parçaları ilə bərabər, Moldovadakı diasporumuzun gənc istedadlarının ifasında milli rəqs nümunələrimiz də təqdim olunub.

# "Mütaliə mədəniyyəti və oxucu məmnunluğu"

## BDU-da Xalq yazıçısı Anarın 85 illik yubileyinə həsr olunmuş elmi konfrans






Bakı Dövlət Universiteti (BDU) İnformasiya və sənəd menecmenti fakültəsinin təşkilatçılığı ilə Xalq yazıçısı Anarın 85 illik yubileyinə həsr olunmuş "Mütaliə mədəniyyəti və oxucu məmnunluğu" mövzusunda respublika elmi konfransı keçirilib.

BDU-dan verilən məlumata görə, tədbirdə yazıçının həyat və yaradıcılığından bəhs edən videoçarx nümayiş olunub.

Universitetin sosial məsələlər, tələbələrlə iş və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Əliş Ağamirzəyev Xalq yazıçısı Anarın yubileyinə həsr olunmuş konfransın BDU-da keçirilməsinin təsadüfi olmadığını deyib: "Anar müəllimin həm özü, həm də övladları universitetin məzunlarıdır. Hesab edirəm ki, konfransın adı və elmi istiqamətləri doğru müəyyən edilib. Anar yaradıcılığı ilə ölkəmizdə mütaliə mədəniyyətinin, oxucu zövqünün formalaşmasına, eləcə də kitabxanalarımızın fondlarının inkişafına mühüm töhfələr verib".

AMEA-nın prezidenti akademik İsa Həbibbəyli yazıçının yaradıcılığı, nəsrindəki çoxşaxəli istiqamətlər, əsərlərinin obrazlar sistemi barədə danışıb: "Anarın yaradıcılığı möhtəşəm azərbaycançılıq abidəsidir. Onun keçmiş mətnlərə yeni nəfəs vermə məharətini yüksək qiymətləndirirəm. Anar müəllim əvvəlki əsərlərinin motivlərinə bir daha qayıtmaqla həmin əsərləri daha da dərinləşdirir".

Milli Kitabxananın direktoru professor Kərim Tahirov, BDU-nun Türk filologiyası kafedrasının professoru, Milli Məclisin deputatı Jalə Əliyeva, Mətbuat Şurasının sədri Rəşad Məcid, Azərbaycan Yazıçılar Birliyinin katibi İlqar Fəhmi çıxışlarında Anar yaradıcılığının məziyyətləri barədə danışıblar.

BDU-nun Redaksiya-nəşriyyat işi kafedrasının müdiri Knyaz Aslan "Anar yaradıcılığı və oxu mədəniyyəti" mövzusunda məruzə edib.

İnformasiya və sənəd menecmenti fakültəsinin dekanı Əlmdar Cabbarlı diqqətə çatdırıb ki, iki gün ərzində konfransda Anarın yaradıcılığı barədə, eyni zamanda, mütaliə mədəniyyəti, oxucu zövqü, kitab sənayesi, müəlliflik hüququ və əlaqəli hüquqlar kimi sahələr üzrə ümumilikdə 40-dan çox məruzə dinləniləcək.

Xalq yazıçısı konfransın təşkilatçılarına, çıxış edənlərə, iştirakçılara təşəkkürünü bildirib: "Məzunu olduğum doğma Bakı Dövlət Universitetində yubileyimə həsr olunmuş yüksək səviyyəli elmi konfransın keçirilməsi mənim üçün çox əlamətdardır".

Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazandığımız tarixi Zəfərdən bəhs edən yazıçı deyib: "Özümü çox xoşbəxt hesab edirəm ki, ölkəmizin gözəl günlərinin şahidi oldum, Qarabağın azadlığını, Şuşamızı görə bildim. Bugünkü xoşbəxtliyimizin təməli Ulu öndər Heydər Əliyev tərəfindən qoyulub. Prezident İlham Əliyev bu təməllər üzərində Azərbaycanı daha qüdrətli ölkəyə çevirdi".

# "Sədalansın muğamatım"

## ADMİU-nun 100 illiyi münasibətilə konsert

Dekabrın 6-da Beynəlxalq Muğam Mərkəzində Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin (ADMİU) 100 illik tədbirləri çərçivəsində "Sədalansın muğamatım" adlı konsert proqramı təqdim olundu. Konsert ADMİU-nun Muğam kafedrası tərəfindən təşkil edilmişdi.




Kafedranın müdiri Xalq artisti Teyyub Aslanov çıxış edərək müəllim və tələbə heyətinin ifasında "Şur" muğam dəsgahının təqdim ediləcəyini diqqətə çatdırdı. Bildirdi ki, muğam sənəti əsrlərdir ustad-tələbə üsulu ilə nəsillərdən nəsillərə ötürüldüyü üçün konsert də məhz bu konsepsiya əsasında qurulub. Musiqi axşamında dinləyicilər ustad-tələbə dialoqunun şahidi olacaqlar.

Sonra söz musiqiyə verildi.

Teyyub Aslanov və Əməkdar artist Zakir Əliyevin tələbələri ilə birgə çıxışını universitetin ansamblı müşayiət edirdi. Xalq şairi Bəxtiyar Vahabzadənin "Muğam" poemasından misralarla başlayan gecə xanəndələrin möhtəşəm ifaçılıq xüsusiyyətlərinin nümayişi ilə muğamın incəliklərini bir daha çatdırmış oldu. Dəsgahların ən böyüyü və sanballısı olan "Şur" öz şuxluğu ilə dinləyiciləri valeh elədi.

Tələbələr Əvəzxan Əzizov, Rəna Mehralıyeva, Sərxan Mirzəyev, Aynur Ağamalıyeva onlara sənətin sirlərini öyrədən müəllimlərinin əməyinin hədər getmədiyini nümayiş etdirdilər.

Konsert proqramı alqışlarla qarşılandı.

**Lalə**

# Musiqili Teatrda yubiley tamaşası – "Qorxma, biz səninləyik!"

## Yuli Qusmanın 80 illik yubileyi münasibətilə

19, 20, 21 dekabr tarixlərində Azərbaycan Dövlət Akademik Musiqili Teatrında "Qorxma, biz səninləyik!" adlı tamaşa-konsertin premyerası olacaq.

Səhnə əsəri tanınmış rejissor, 60-cı illərin "KVN" komandasının məşhur kapitanı, Azərbaycanın Xalq artisti Yuli Qusmanın 80 illik yubileyi münasibətilə təqdim olunur və onun 42 il öncə çəkdiyi "Qorxma, mən səninləyəm!" filminin yaradıcı heyətinin xatirələri əsasında hazırlanıb. Tamaşa-konsertin bəstəkarı Xalq artisti Polad Bülbüloğlu, libretto müəllifləri Yelena İsayeva və Cavid İmamverdiyevdir.

Layihənin ideya müəllifi yubilyarın qardaşı, Rusiyanın TASS İnformasiya Agentliyinin baş direktorunun birinci müavini Mixail Qusmandır. Yuli Qusmanın yubileyinin vaxtilə çalışdığı teatrda qeyd olunması fikri isə tamaşanın bədii rəhbəri, teatrın direktoru Əməkdar incəsənət xadimi Əliqismət Lalayevə məxsusdur.

Səhnə əsərinin quruluşçu rejissoru Cavid İmamverdiyev, quruluşçu dirijoru Əməkdar incəsənət xadimi Fəxrəddin Atayev, xormeysteri Əməkdar artist Vaqif Məstanov, quruluşçu baletmeysteri Əməkdar artist Emin Əliyev, quruluşçu rəssamı Vüsal Rəhim, konsertmeysteri Fidan Əliyeva, qrim üzrə rəssamı Aybəniz Hüseynova, rejissor assistenti Tamilla Aslanovadır.

Tamaşa-konsertdə Xalq artisti İlham Namiq Kamal, Əməkdar artistlər Boris Qrafkin, Şövqi Hüseynov, Fərid Əliyev, Prezident mükafatçısı Mehriban Zaliyeva, aktyorlar Rauf Babayev, Emil Heydərov, Nicat Əli, Leonid Kletz, Olqa Georgiyeva, teatrın xor və balet truppasının artistləri iştirak edirlər.

Premyerada yubilyarın özünün də iştirakı gözlənilir. Yuli Qusmanın maraqlı yaradıcılıq yolu və onun sevimli filmi haqda tamaşada Polad Bülbüloğlunun sehrli musiqiləri ilə unudulmaz anlar yaşamaq istəyənlər biletləri almağa tələsə bilərlər.

# Məcnun obrazında ilk dəfə...

Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı dekabrın 6-da Üzeyir Hacıbəylinin "Leyli və Məcnun" operasını nümayiş etdirib.

Teatrın binasının əsaslı təmirə bağlanması səbəbindən Bakı Musiqi Akademiyasının Opera studiyasında təqdim olunan tamaşa yenilikə yadda qalıb. Teatrın gənc solisti Xəyal Hüseynov ilk dəfə Məcnun rolunda səhnəyə çıxıb.

X.Hüseynov Azərbaycan Milli Konservatoriyası tərkibində Bakı Musiqi Kollecinin məzunudur. Əməkdar artist Təyyar Bayramovun sinfində təhsil alıb. Ötən mövsümdə "Leyli və Məcnun"da Şeyx rolunda səhnəyə çıxan gənc ifaçı bir neçə aylıq gərgin məşqlərdən sonra, nəhayət, Məcnun obrazında sənət imtahanı verib. Tamaşada iştirak edən təcrübəli muğam ustaları və musiqi biliciləri Xəyalın ifasına çox yüksək qiymət verərək onun debütünün uğurla gerçəkləşdiyini bildiriblər.

Səhnə əsərində Leyli partiyasını teatrın gənc solisti Rəvanə Əmiraslanlı ifa edib. Digər rollarda Əməkdar artist Təyyar Bayramov (İbn Salam), solistlərdən Aytən Məhərrəmova (Leylinin anası), Taleh Yahyayev (Leylinin atası), Afaq Ağayeva (Məcnunun anası), Mütəllim Dəmirov (Məcnunun atası), Mirəli Sarızadə (Şeyx), Rəşad Həsənzadə (Nofəl), Nəzər Bəylərov çıxış ediblər.



Tamaşanın quruluşçu rejissoru Əməkdar incəsənət xadimi Hafiz Quliyev, dirijoru Əməkdar incəsənət xadimi Sevil Hacıyevadır.

# Nakam ömrün sonatası

## Pianoçu Xədicə Qayıbovanın 130 illiyi qeyd olundu

Bu il Azərbaycanın ilk qadın pianoçusu, muğam variasiyalarını ilk dəfə fortepianoda ifa etmiş Xədicə Qayıbovanın (1893–1938) anadan olmasının 130 illiyidir.






Dekabrın 6-da Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyində Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının (BMA) birgə təşkilatçılığı ilə Xədicə Qayıbovanın yubileyinə həsr olunan tədbir keçirilib.

Tədbiri giriş sözü ilə açan muzeyin elmi-kütləvi işlər şöbəsinin müdiri Xanım Abdinova Xədicə Qayıbovanın musiqi mədəniyyətimizin inkişafında fəal iştirakı, maarifpərvər və pedaqoji fəaliyyəti haqqında geniş məlumat verdi. Diqqətə çatdırdı ki, X.Qayıbova Tiflisdə ünlü ruhanilərdən Osman bəy Müftizadənin ailəsində dünyaya göz açıb. Erkən çağlardan musiqiyə maraq göstərib. Valideynləri onu şəhərdəki "Müqəddəs Nina" qızlar məktəbinə qoyur. O, burada mükəmməl musiqi təhsili alır.

Azərbaycanda sovet hökuməti qurulandan sonra X.Qayıbova musiqi mədəniyyəti sahəsində daha aktiv fəaliyyət göstərir. Maarif Komissarlığında Şərq musiqisi şöbəsinin müdiri təyin edilir. Təşəbbüsü ilə "Qısamüddətli Şərq musiqi kursları" təşkil edilir. Ayrı-ayrı məktəblərdə uşaq xoru yaradılır. Dövrünün görkəmli sənətkarları ilə çalışaraq Azərbaycan musiqi folklorunun toplanılması istiqamətində də ciddi səylər göstərir. Öz evini musiqi mədəniyyəti ocağına çevirir. Mütəmadi olaraq musiqi məclisləri keçirir. Daha sonra Azərbaycan Dövlət Konservatoriyasına daxil olur. Bəstəkarlıq sənətinin sirlərini, musiqinin nəzəri əsaslarını öyrənir. Muğam variasiyalarını ilk dəfə fortepianoda ifa edir.

Onun fəallığı sovet hüquq-mühafizə orqanları tərəfindən təqib edilir. Yaradıcılığının çiçəkləndiyi bir vaxtda repressiyaya məruz qalır. 1937-ci ildə həbs olunur. Türk ordusunun zabiti Sultan Hüseynzadəni evində gizlətməkdə ittiham edilir və haqqında güllələnmə hökmü çıxarılır. 27 oktyabr 1938-ci ildə hökm icra olunur...

Tədbirdə daha sonra X.Qayıbovaya həsr olunan "Ömür sonatası" bədii-sənədli filmi nümayiş olundu. Qeyd edildi ki, Azərbaycan Televiziyasının "Sabah" studiyası tərəfindən lentə alınmış filmin rejissorları Namiq Ağayev, Anaxanım Abdullayeva, ideya müəllifi və prodüseri Xalq artisti Ramiz Həsənoğludur.

Filmdə Xədicə Qayıbovanın obrazını canlandırmış pianoçu, BMA-nın dosenti, sənətşünaslıq üzrə fəlsəfə doktoru Nərgiz Salmanlı və filmin məsləhətçisi Xalq artisti, BMA-nın prorektoru Yeganə Axundova ekran işinin ərsəyə gəlməsindən danışdılar.

Görkəmli pianoçunun nakam ömrünə işıq salan film maraqla qarşılandı.

Tədbirdə Nərgiz Salmanlı və BMA-nın tələbələri Nəzrin Məhərrəmli, Gülnar Qədirova, Fidan Muxtarova, Maya İsmayıllı, beynəlxalq və respublika müsabiqələri laureatları Kübra Həşimli, Rasimə Abdullayeva və Məryəm Məmmədovanın ifalarında Azərbaycan və Avropa bəstəkarlarının əsərlərindən ibarət konsert proqramı təqdim edildi.

Çıxışlar və musiqi ifaları X.Qayıbovanın həyat və yaradıcılıq yolunu əks etdirən, muzeyin zəngin kolleksiyaları əsasında hazırlanmış slayd-şou ilə müşayiət olunurdu.

**Savalan Fərəcov**

# "Yaradıcı müzakirələr" – Naxçıvanda təlimlər təşkil edilib

Xəbər verdiyimiz kimi, Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə 27 noyabr – 3 dekabr tarixlərində keçirilən "Yaradıcı həftə"nin maraqlı layihələri arasında "Yaradıcı müzakirələr" ("Creative Talks") də var.

Layihə paytaxtda və regionlarda mədəniyyət və yaradıcılıq sahələrində bacarıqların inkişafını təşviq edən maarifləndirici təşəbbüsdür və yaradıcı subyektlərin formalaşmasının dəstəklənməsinə yönəlib.

Layihə çərçivəsində Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə 10 yaradıcı klaster üzrə (Quba, Bakı, Sumqayıt, Lənkəran, Naxçıvan, Gəncə, Mingəçevir, Şəki, Şamaxı, Şuşa) ümumilikdə 100 tədbirin təşkili nəzərdə tutulur.

"Yaradıcı müzakirələr"in ilk tədbirlərindən biri Naxçıvan Dövlət Texniki Kollecində gerçəkləşib. Çıxış edən layihənin koordinatoru Vüsal Süleymanlı və Naxçıvan MR Mədəniyyət Nazirliyi Aparatının rəhbəri Piri Nağıyev 10 yaradıcı klaster üzrə ölkəmizin tanınmış simalarının bilik və təcrübələrini bölüşəcəklərini deyiblər.

Aktyor, rejissor və ssenarist Taleh Yüzbəyov "Yaradıcı kinematoqrafiya: ssenaridən ekrana", "Azərxalça" ASC-nin kreativ direktoru Əsmər Babayeva "Sərvət ipləri: biznes olaraq xalçaçılıq", "Mikro" MMC-nin direktoru, reper, prodüser Pərviz İsaqov "Pulun harmoniyaları: gəlirgətirən musiqi", rəssam Erkin Ələkbərli "Mənfəətin fırça vuruşları: təsviri sənət biznesi", Azərbaycan Animasiya Assosiasiyasının sədri, rejissor və ssenarist Rəşid Ağamalıyev "Mənfəət üçün canlandırma: animasiya sənəti və ticarəti" mövzusunda təlim keçiblər.

# Azərbaycan turizm sammiti keçirilib

Dekabrın 7-də Bakıda "Azərbaycan Turizm Sammiti – 2023" adlı tədbir keçirilib. Ənənəvi tədbir bu il Ulu öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunub.

Sammitdə "Heydər Əliyev və Azərbaycan turizmi" adlı sənədli film (müəllif Rüfət Həmzəyev) və kitabın təqdimatı olub.

Ekran əsərində Ulu öndərin sovet hakimiyyəti və müstəqillik dövründə turizmin inkişafı üçün qəbul etdiyi qərarlar, vaxtında atılan addımlar və bu uğurlu siyasətin davamı olaraq son 20 il ərzində turizmə ölkə rəhbərliyi tərəfindən diqqətin göstərilməsi sayəsində qeyri-neft iqtisadiyyatının aparıcı sahələrindən birinə çevrilməsindən bəhs olunur.

Dövlət Turizm Agentliyi (DTA) Turizm siyasəti və strategiyası şöbəsinin müdiri Məhəmməd Muradov, şöbənin sektor müdiri Nicat Abbaslı bu il ərzində turizm sahəsinin inkişafı üçün görülən işlər, o cümlədən "2023–2026-cı illər üçün Turizm İnkişaf Strategiyası"nın hazırlanması, vahid turizm platformasi rolunu oynayan Turizm İnformasiya Sisteminin fəaliyyətə başlaması haqqında danışıblar.

Qeyd edilib ki, 11 ay ərzində Azərbaycana 1 milyon 893 min-dən çox turist gəlib, bu isə ötən illə müqayisədə 30 faiz çoxdur. Pandemiyadan sonra turizm sənayesində bərpa prosesi sürətlə davam edir.

Həmçinin maddi mədəni irsimizin qorunması istiqamətində görülən işlər üzrə "Xınalıq və Köç yolu mədəni landşaftı" maddi mədəni irs nümunəsinin UNESCO-nun Dünya İrs Siyahısına daxil edilməsi, Xınalıq, Basqal, Yuxarı Baş, Kiş kimi qoruqlarda bərpa və konservasiya işlərinin davam etdirilməsi vurğulanıb. Bildirilib ki, yeni və unikal turizm məhsulu kimi Palçıq Vulkanları Turizm Kompleksi üzrə işlər yekunlaşmaq üzrədir.

# "Dövlət və xalq üçün yaşanan ömür"

Dekabrın 6-da Bakı Şəhər Mədəniyyət Baş İdarəsi Suraxanı rayon Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə Ümummilli liderin anım gününə (12 dekabr) həsr edilmiş "Dövlət və xalq üçün yaşanan ömür" adlı tədbir keçirilib.




Öncə Ulu öndərin abidəsi önünə gül dəstələri qoyulub, xatirəsi ehtiramla yad edilib. Sonra mərkəzin foyesində rayon məktəblilərinin əl işlərindən ibarət rəsm sərgisinə və Heydər Əliyevin zəngin siyasi irsini əks etdirən ekspozisiyaya baxış olub.

Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi, Ulu öndərin və şəhidlərimizin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad olunması ilə açıq elan edilib. Daha sonra dahi dövlət xadiminin şərəfli həyat yolundan və siyasi fəaliyyətindən bəhs edən videoçarx nümayiş olunub.

Çıxışlarda Ulu öndərin müasir müstəqil Azərbaycanın inkişafı naminə əvəzedilməz xidmətlərindən danışılıb. Azərbaycanın parlaq gələcəyinin etibarlı təməlini qoyan Heydər Əliyevin dövlətçilik irsinin təbliğinin zəruriliyi vurğulanıb.

# Qarşıdakı üç ildə 33 mindən çox ailə dirçələn yurd yerlərinə köçəcək

Vətən müharibəsində şanlı Zəfərdən sonrakı üç il müddətində Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında bərpa-quruculuq işlərinə dövlət büdcəsindən 12 milyard manat vəsait ayrılıb. 2024-cü ilin dövlət büdcəsində isə 4 milyard manat vəsait nəzərdə tutulub.

Baş nazir Əli Əsədov bunu dekabrın 5-də Milli Məclisdə 2024-cü il üzrə büdcə müzakirələri ilə bağlı iclasda çıxışı zamanı deyib. O bildirib ki, Böyük Qayıdışa dair I Dövlət Proqramının (2022–2026) icrası üçün ümumilikdə təqribən 30,5 milyard manat məbləğində vəsait tələb olunur. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirilən layihələr, vergi, gömrük, sosial sığorta, investisiya təşviqi, kredit və digər güzəştlər paketi həmin rayonların sürətlə dirçəlməsinə, əhalinin məskunlaşmasına və davamlı iqtisadi aktivliyinin təmin olunmasına xidmət edir.

Əli Əsədov xatırladıb ki, Böyük Qayıdışa dair I Dövlət Proqramı üzrə 2022-ci ildə və cari ilin ötən dövründə ümumilikdə 987 ailə (3932 nəfər) köçürülüb. 2023-cü ilin sonunadək əlavə olaraq 215 ailənin köçürülməsi gözlənilir. I Dövlət Proqramının sonunadək ümumilikdə 34 500 ailənin (140 min nəfər) köçürülməsi nəzərdə tutulub.

Başqa sözlə, qarşıdakı üç ildə (2024–2026) dirçələn yurd yerlərimiz 33 mindən çox ailəyə qucaq açacaq.

Baş nazir onu da bildirib ki, Qarabağ iqtisadi rayonunun əraziləri – Xankəndi, Ağdərə, Xocalı, Xocavənd və bütövlükdə işğaldan azad olunmuş rayon və şəhərlərin yerli xərcləri üzrə büdcədə 50 milyon manatdan artıq vəsait nəzərdə tutulub.

Yenidən qurulan yaşayış məntəqələrinə sakinlərin qayıdışı bu günlərdə də davam edir.



Dekabrın 7-də Bakı şəhərinin Qaradağ rayonundan yola salınan növbəti köç karvanı Füzuli şəhərinə çatıb.

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsindən verilən məlumata görə, yeni köçürülən ailələrə mənzillərinin açarlarının təqdimat mərasimi keçirilib. Bununla da Füzuli şəhərində 333 ailə, yəni 1186 nəfərin daimi məskunlaşması təmin edilib.

Böyük Qayıdışa dair I Dövlət Proqramı üzrə 2026-cı ilin sonunadək Şuşaya iki min ailə köçürüləcək. İlk 370 ailə isə 2024-cü ilin birinci yarısında Şuşada məskunlaşacaq.

Bunu isə Prezidentin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov deyib. O, mədəniyyət paytaxtımızda abidələrin bərpası vəziyyəti ilə bağlı da məlumat verib. Bildirib ki, bu günə kimi şəhərdə 16 abidə tam bərpa olunub. Bir neçə abidə üzrə bərpa işləri davam edir.

# ANAMA-dan mina təhlükəsi ilə bağlı çağırış

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) baş verən mina hadisələri ilə bağlı bir daha vətəndaşları təhlükəsizlik qaydalarına riayət etməyə və məsuliyyətli davranmağa çağırır.




Məlumatda deyilir ki, işğaldan azad edilmiş ərazilərdə mina və partlayıcı sursatların təhlükəsi davam etməkdədir. Minalanmış ərazilərdə hər bir yanlış addım həyat və sağlamlığınız üçün ciddi fəsadlar törədə bilər.

ANAMA vətəndaşları təyin edilmiş yerlərdən, yollardan və cığırlardan kənara çıxmamağa, naməlum və şübhəli əşyalara toxunmamağa, təhlükəsizliyinə əmin olmadığınız ərazilərə daxil olmamağa, atılıb qalmış hərbi sursatlar, texnikalar, səngərlər olan sahələrə, dağıdılmış yaşayış və digər tikililərin olduğu ərazilərə yaxınlaşmamağa çağırır.

Qeyd edək ki, dekabrın 7-də Şuşa və Füzuli rayonlarında daha iki mina partlayışı barədə məlumat yayılıb.

ANAMA-dan bildirilib ki, Şuşa şəhəri yaxınlığında keçmiş erməni postu ərazisində (keçmiş tar sexi) minalardan təmizlənməyən sahədə mina hadisəsi baş verib. Piyada əleyhinə mina partlayışı nəticəsində elektrik təsərrüfat işləri ilə məşğul olan Lerik rayon sakini, 1987-ci il təvəllüdlü Həbibov Rahim Şirməmməd oğlu xəsarət alıb.

Baş Prokurorluqdan verilən məlumatda isə dekabrın 7-də Füzuli rayonu Horadiz kəndi ərazisində təsərrüfat işləri aparan zaman traktorun minaya düşməsi nəticəsində 1994-cü il təvəllüdlü Zamin Həsənlinin xəsarət aldığı bildirilir.

# "Heydər Əliyev İli" tədbirləri davam edir

Ulu öndər Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Biləsuvar rayonundakı mədəniyyət müəssisələri arasında intellektual yarış keçirilib.

Rayon Mədəniyyət Mərkəzinin "eMeM" komandası I, rayon Heydər Əliyev Mərkəzinin "Lider" komandası II, Biləsuvar Dövlət Rəsm Qalereyasının "Zərif əllər" komandası isə III yeri qazanıb. Qalib komandalar diplomla mükafatlandırılıb.

***

Astara Tarix-Diyarşünaslıq Muzeyində "Heydər Əliyev və Azərbaycan" mövzusunda tədbir keçirilib. Əvvəlcə Ulu öndərin və şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Çıxış edənlər Heydər Əliyevin həyatı və siyasi fəaliyyəti haqqında iştirakçılara məlumat veriblər. Sonda şagirdlərlə fikir mübadiləsi aparılıb.










Masallı rayon Heydər Əliyev Mərkəzində "Heydər Əliyevin həyatı müasir gəncliyin gözü ilə" mövzusunda dəyirmi masa təşkil edilib. Qeyd olunub ki, ölkəmizdə gənclər siyasətinin əsası Ümummilli lider tərəfindən qoyulub və uğurla davam etdirilir. Bu qayğının nəticəsi olaraq Azərbaycan gəncləri ölkəmizin ictimai-siyasi, sosial-mədəni həyatında fəallıq göstərirlər. Tədbirdə gəncləri maraqlandıran suallar cavablandırılıb.

Masallı Tarix-Diyarşünaslıq Muzeyi, rayon İcra Hakimiyyəti, Mərkəzi Kitabxana, Gənclərin İnkişaf və Karyera Mərkəzinin (GİKM) Lənkəran-Astara Regional nümayəndəliyi Masallı bölməsinin birgə təşkilatçılığı ilə "Heydər Əliyev siyasəti, onun siyasi irsi xalqımızın milli sərvəridir" mövzusunda tədbir keçirilib. Sonda iştirakçılar muzeyə ekskursiya ediblər.

Yardımlı rayon Heydər Əliyev Mərkəzində "Dahi azərbaycanlı" adlı tədbir təşkil olunub. Çıxış edənlər Heydər Əliyevin 1993-cü ildə yenidən hakimiyyətə qayıdışı ilə Azərbaycanı məhv olma təhlükəsindən xilas etməsi, həmin ildən etibarən ölkəmizin keçdiyi inkişaf yolu, qazandığı uğurları ilə bağlı məlumat verilib. Sonra Ümummilli liderə həsr olunan "Dahi şəxsiyyət" sənədli filmi nümayiş etdirilib.

***

Şamaxı rayon Əfzələddin Xaqani adına Mədəniyyət Mərkəzinin tabeliyində fəaliyyət göstərən Mədrəsə qəsəbə klubu və Şamaxı rayon Elxan Rzayev adına Mədrəsə qəsəbə tam orta məktəbin birgə təşkilatçılığı ilə "Tarix yaradan şəxsiyyət" adlı tədbir keçirilib. Tədbirdə Şamaxı rayon mədəniyyət müəssisələrinin əməkdaşları, qəsəbə tam orta məktəbinin kollektivi və ictimaiyyət nümayəndələri iştirak ediblər.

***

Kəlbəcər rayon MKS-nin (Gəncə şəhəri) Oxuculara xidmət şöbəsində "Heydər Əliyevin dövlətçilik idealları və müasir gənclik" mövzusunda tədbir təşkil edilib. Bildirilib ki, Azərbaycan gənclərinin müasir, inkişaf edən, yüksək intellektli aparıcı qüvvə kimi formalaşmasında dövlətimizin gənclər siyasətinin mühüm rolu var.

***

Mil-Muğan RMİ-nin elan etdiyi "Yolumuz Heydər yoludur: Sabirabaddan Beyləqana" adlı layihənin ilk tədbiri Saatlı rayonunda keçirilib. Saatlı rayon Heydər Əliyev Mərkəzində






gerçəkləşən tədbirdə Uşaq İncəsənət Festivalında uğur qazanmış yeniyetmə və gənclərə Ulu öndərin siyasi irsi barədə məlumat verilib. Tədbirin bədii hissəsində təqdim olunan müxtəlif musiqi nömrələri və rəqslər, eləcə də rəsm sərgisi, tamaşaçılar tərəfindən maraqla qarşılanıb.

***

Qazax şəhər 1 nömrəli Uşaq musiqi məktəbi və Qazax Dövlət Rəsm Qalereyasının birgə təşkilatçılığı ilə "Ulu öndərin dövlətçilik irsi və Azərbaycan gəncliyi" adlı rəsm sərgisi və konsert proqramı keçirilib. Sərgidə qalereyada fəaliyyət göstərən dərnəyin üzvləri tərəfindən "Heydər Əliyev İli" münasibətilə ərsəyə gətirdikləri rəsmlər yer alıb. Tədbirdə musiqi məktəbi şagirdlərinin ifasında Azərbaycan və xarici ölkə bəstəkarlarının əsərləri səsləndirilib.

Şəmkir rayon Mərkəzi Kitabxanasının Oxuculara xidmət şöbəsi Ə.Cavad adına Mədəniyyət Mərkəzində "Ürəklərdə yaşayan əbədi lider" başlığı altında sərgi təşkil edib. Sərgidə Ulu öndər haqqında görkəmli şəxslərin fikirləri, Heydər Əliyevin siyasi irsi, onun Azərbaycan mədəniyyəti və elminin inkişafına diqqət və qayğısı barədə kitablar nümayiş olunub.

Şəmkir rayon MKS-nin 1 saylı şəhər kitabxana filialı N.Nərimanov adına şəhər tam orta məktəbində "Elm və təhsilin inkişafında Heydər Əliyevin rolu" adlı informasiya saatı keçirib.

**Hazırladı: N.Məmmədli**

# Gəncədə gürcü şairin xatirə lövhəsinin açılışı olub

Gəncə Şəhər İcra Hakimiyyəti, Mədəniyyət Nazirliyi və Gürcüstanın Gəncədəki Baş Konsulluğunun təşkilatçılığı ilə Cavad xan dəftərxanasının önündə görkəmli gürcü şairi Nikoloz Barataşvilinin (1817–1845) xatirə lövhəsinin açılış mərasimi keçirilib.

Mədəniyyət nazirinin müavini Murad Hüseynov, Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Gürcüstanın Azərbaycandakı səfiri Zurab Pataradze, Türkiyənin Gəncədəki baş konsulu Recep Öztop, millət vəkilləri Pərvin Kərimzadə, Müşfiq Cəfərov və digər qonaqlar mərasimdə iştirak ediblər.

Çıxışlarda qeyd olunub ki, Gəncədə N.Barataşvilinin xatirə lövhəsinin açılması Azərbaycan-Gürcüstan əlaqələrinin tarixi köklərə malik olduğunu göstərir.

Bildirilib ki, çətin taleli, cəmi 28 il yaşamış şair və tərcüməçi ömrünün bir hissəsini xidməti ilə əlaqədar Naxçıvan və Gəncədə keçirib. O, Gəncədə malyariya xəstəliyindən vəfat edib və burada torpağa tapşırılıb. Uzun illərdən sonra gürcü ziyalıları onun nəşini şairin doğulduğu Tiflisə köçürərək yenidən dəfn ediblər.

Çıxışlardan sonra Niyazi Bayramov və Zurab Pataradze tərəfindən xatirə lövhəsinin üzərindəki ağ örtük götürülüb, önünə tər çiçəklər düzülüb.



Bədii hissədə "Xəmsə" uşaq rəqs ansamblının solisti Məryəm Əlizadə, Gəncə şəhər F.Əmirov adına 1 nömrəli Uşaq musiqi məktəbinin müəllimi Amin Bayramov və Qax rayonunda fəaliyyət göstərən "Şvitkatso" gürcü xalq xoru, həmçinin "İmedi" rəqs kollektivinin çıxışları olub.

Qeyd edək ki, Gəncə hakimi Cavad xanın dəftərxanasında çarlıq dövründə Usuf bəyin rus dili məktəbi fəaliyyət göstərib. N.Barataşvili 1845-ci ildə Gəncədə qəza rəisinin müavini vəzifəsində işləyərkən bu binada yaşayıb. Sovet dövründə binadan şairin ev-muzeyi kimi istifadə olunub. Bina 2012-ci ildə sökülərək yenidən inşa edilib.

# Bu yerləri mina bəlasından xilas edəcəyik

QHT-lərə Dövlət Dəstəyi Agentliyinin təşkilatçılığı ilə keçirilən "Dayanıqlı inkişaf məqsədlərinə nail olmaq üçün sağlam ətraf mühit və minasız həyat" adlı beynəlxalq forumun iştirakçıları dekabrın 7-də Ağdam rayonunun Baş Qərvənd kəndi ərazisində minatəmizləmə prosesi ilə tanış olublar.



Qonaqlara Azərbaycanda ilk qadın minatəmizləmə qruplarının yaradılması, minatəmizləmə zamanı itlərlə yanaşı, siçovullardan da istifadə edilməsi barədə də məlumat verilib.

İlk dəfədir ki, Ağdama gəlirik. Burada olan mənzərə o qədər də ürəkaçan deyil. Hər yer dağılmış vəziyyətdədir.

Bunu forumun iştirakçısı olan türkiyəli mütəxəssis Engin Özdəmir söyləyib.

Son illər Ağdamda çox gözəl yenidənqurma, tikinti-quruculuq prosesinin getdiyini söyləyən E.Özdəmir deyib: "Bu da türk olaraq bizləri xoşbəxt edir. Bu yerləri təmizləyərək mina bəlasından xilas ola biləcəyimizə ümid edirik".

# Niderlandlı yazıçı Qarabağ haqqında kitab yazır

## "Azərbaycan artıq mənim ikinci vətənim olub, bu xalqı sevirəm"

"Mən Niderlanddanam və Qarabağda səfərdəyəm, Qarabağ haqqında baş verənlər barədə kitab yazıram. Çünki mənim ölkəmdə insanlar Azərbaycan haqqında, Qarabağ haqqında məlumatlı deyil".

Bunu Ağdama səfər edən niderlandlı yazıçı Henri Van Rens deyib.

Niderlandlı yazıçı Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin təşkilatçılığı ilə "Dayanıqlı inkişaf məqsədlərinə nail olmaq üçün sağlam ətraf mühit və minasız həyat" adlı beynəlxalq forumun iştirakçısıdır. Dekabrın 6-da Bakıda işə başlayan beynəlxalq forum ertəsi gün Ağdam Konfrans Mərkəzində davam edib.

O qeyd edib ki, yazdığı kitab Birinci Qarabağ müharibəsi dövrünü, 1988–1994-cü illərdə baş verənləri əhatə edir.




Niderlandlı yazıçı Azərbaycana ilk dəfə 2009-cu ildə səfər etdiyini, o vaxtdan sonra mütəmadi olaraq ölkəmizə gəldiyini vurğulayıb: "Mən Azərbaycana səfərlərim zamanı bütün ölkəni gəzmişəm, lakin o zamanlar Qarabağa gəlmək mümkünsüz idi. Lakin 2021-ci ildə bu baş tutdu. Mən Qarabağa gəldim, burada insanlarla söhbət etdim, onların həyat hekayələrini dinlədim, kitabım üçün yeni fotolar çəkdim. Mənim kitabım ermənilər tərəfindən əsir alınıb işgəncəyə məruz qalmış, öldürülmüş Xocalı, Başlıbel və digər Qarabağ qurbanları barədədir. Kitab üzərində işlərim hələ davam edir. Bu gün ANAMA lazım olan köməkliyi mənə göstərir. Bu sayədə kitab tezliklə tamamlanacaq".

Henri Van Rens kitabın gələn il Novruz ərəfəsində Niderlandda nəşr olunacağını deyib. O, kitabın təqdimatı üçün Azərbaycana səfər edəcəyini bildirib: "Azərbaycan artıq mənim ikinci vətənim olub. Mən bu xalqı sevirəm. Çox şadam ki, Qarabağ yenidən bütövlükdə Azərbaycana məxsusdur. Bir zamanlar bu torpaqlarda yaşamış insanlar indi deyirlər ki, biz evimizə qayıdırıq...".



Beynəlxalq Muğam Mərkəzində (BMM) dekabrın 4-də xanəndə Rəvanə Qurbanova və tarzən Rövşən Qurbanovun "Qəlbimizin səsi" adlı konserti keçirilib.

# "Qəlbimizin səsi"

## Muğam, xalq və bəstəkar mahnılarından ibarət konsert

BMM-in solistləri olan ifaçılar muğam, xalq və bəstəkar mahnılarından ibarət konsert proqramında şən-şux nağmələrlə tamaşaçıların könlünü oxşayıblar. Rövşən Qurbanovun sənət dostları ilə birgə duet ifaları, tələbələrinin çıxışları maraqla qarşılanıb.

Musiqi axşamında tanınmış musiqi xadimləri, ifaçıların müəllimləri də dinləyicilər arasında olublar. Xalq artistləri – tarzənlər Vamiq Məmmədəliyev, Ramiz Quliyev çıxış edərək Rövşən Qurbanovun tarzən kimi fəaliyyətini yüksək dəyərləndirib, cütlüyü birgə uğurlu ifa münasibətilə təbrik ediblər.

Xalq artisti Mənsum İbrahimov 2007-ci ildə "Muğam" televiziya müsabiqəsinin laureatı, eyni zamanda Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solisti olan Rəvanə Qurbanovanın sənət dünyasından söz açıb, ona yaradıcılıq uğurları arzulayıb.

**L.Azəri**

# Niyazi adına məktəbdə Arif Məlikovun yubileyi qeyd olunub

Adını Azərbaycanın musiqi mədəniyyəti salnaməsinə qızıl hərflərlə yazdıran görkəmli bəstəkar, pedaqoq, SSRİ Xalq artisti, akademik Arif Məlikovun (1933-2019) 90 illiyi münasibətilə silsilə tədbirlər davam edir.



Sənətkarın yubileyi ilə bağlı daha bir tədbir Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin Niyazi adına 22 nömrəli Uşaq musiqi məktəbində gerçəkləşib. Mühazirə-konsertdə görkəmli bəstəkarın çoxşaxəli yaradıcılığından bəhs edilib. Bildirilib ki, Arif Məlikov bənzərsiz yaradıcılığı ilə Azərbaycanla yanaşı, yaxın-uzaq ölkələrdə də geniş şöhrət qazanıb.

Daha sonra konsert proqramı təqdim olunub. Məktəbin şagirdləri bəstəkarın bir sıra əsərlərini səsləndiriblər.

# Əməkdar rəssamın 80 illiyi münasibətilə xatirəsi anılıb

Xətai Sənət Mərkəzində "Heydər Əliyev İli" çərçivəsində Əməkdar rəssam Rafael Abbasovun (1943-2020) 80 illik yubileyinə həsr olunmuş təqvimin təqdimatı və xatirə gecəsi keçirilib.



Xalq rəssamları Arif Hüseynov, Siruz Mirzəzadə, Əməkdar incəsənət xadimi, sənətşünas Ziyadxan Əliyev və başqa çıxış edənlər rəssamın yaradıcılıq yolundan söz açıb, xatirələrini bölüşüblər.

Bildirilib ki, Rafael Abbasovun yaradıcılığında portret janrı xüsusi yer tutur. O, Ulu öndər Heydər Əliyevin də portretlərini böyük sənətkarlıqla yaradıb.

Rəssamın əsərlərində ölkəmizin, xüsusən də Abşeron və Naxçıvanın təbiətinə sevgi duyulur. Onun əl işləri ölkəmizlə yanaşı, Almaniya, ABŞ, Meksika, Kanada, Koreya, Türkiyə, Özbəkistan, Latviya, Belarus və Rusiyada qalereyalarda, şəxsi kolleksiyalarda saxlanılır.

Rafael Abbas oğlu Abbasov Bakıda anadan olub. 1960–1965-ci illərdə Ə.Əzimzadə adına Rəssamlıq Məktəbini, 1968–1974-cü illərdə M.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunu bitirib. 1979-cu ildən Azərbaycan Rəssamlar İttifaqının üzvü, 1967-ci ildən respublika, ümumittifaq və beynəlxalq sərgilərin iştirakçısı olub.

**Lalə**

# "Bərabər gecələr"

## YARAT-da gürcü rəssamların sərgisi

YARAT Müasir İncəsənət Mərkəzində gürcü rəssamların "Ekinoks" adlı qrup sərgisi təşkil edilib.

YARAT-dan bildirilib ki, dekabrın 7-də açılışı olan sərgidə Qia Edzqveradze, Tamara K.E., Luka Lazar, Konstantin Mindadze, Koka Ramişvili, Andro Semeyko və Levan Sonqulaşvilinin son illərdə çəkdikləri əsərlər yer alıb.

"Ekinoks" (lat. "aequinoctium" – "bərabər gecələr") multidisiplinar sərgisi, insan identikliyinin dərk edilməsinin təməl prinsipini, XX əsrin sonlarından başlayaraq XXI əsrin əvvəllərinə qədər lokal və qlobal perspektivlərdə şüurun formalaşması yolunu təsvir edən yeddi gürcü rəssamı bir araya gətirir.

Sərgi layihəsi, müəyyən fərdi və kollektivi (və ya əksinə, kollektivi və fərdi) bir-birinə bağlayan qarşılıqlı fəaliyyətin mürəkkəb diskursunu, eləcə də fərdi təcrübənin kollektiv təcrübəyə, habelə dəyişən zaman kəsiklərinə təsirini ortaya qoyur. Ekspozisiya işıq və qaranlığın qarşılıqlı əlaqəsini təsvir etməklə, dualist prinsip üzərində qurulub: burada fərd və kollektiv arasında qarşılıqlı fəaliyyət kontinuumda (zaman-məkan prosesində) nəzərdən keçirilir.

Sərgidə təqdim olunan araşdırma tanınmış gürcü mütəfəkkiri Merab Mamardaşvilinin Tbilisi Dövlət Universitetində incəsənət və humanitar elmlər üzrə tələbələrinə oxuduğu (1984–1985) mühazirələr üzərində



qurulub. Sərginin adı da onun "Bərabərlik nöqtəsi" mühazirəsindən götürülüb. Burada gecə və gündüzün qarşılıqlı təsirinin nümunəsi qismində şüurun ifadə tarazlığının əldə edildiyi məkanı təsvir edir.

Aprelin 27-dək davam edəcək sərginin kuratorları Tamuna Arşba və Tata Ksovrelidir.

**Teatr xəbərləri**

# Naxçıvan teatrı İzmirdə festivalda



1-11 dekabr tarixlərində Türkiyənin İzmir şəhərində 11-ci Beynəlxalq Teatr Festivalı keçirilir. Türkiyə Mədəniyyət və İncəsənət Fondu (TAKSAV) tərəfindən təşkil edilən və bu il "Dönüşüm" (transformasiya) mövzusuna həsr olunan festivala Türkiyə, Azərbaycan, Serbiya və İrandan teatr kollektivləri qatılıb.

Festivalda ölkəmizi Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrı təmsil edir. Yaradıcı heyət teatrın baş rejissoru Mir Qabil Əkbərovun quruluşunda V.Hüqonun "Edama məhkumun son günü" əsərinin tamaşasını dekabrın 6-da nümayiş etdirib.

Quruluşçu rəssamı Naxçıvan MR-in Əməkdar rəssamı Səyyad Bayramov, xoreoqrafı Lamiyə Əliyeva olan səhnə əsərində rolları muxtar respublikanın Əməkdar artisti Səməd Canbaxşiyev, Mehri Nəbiyeva və Məmməd Mehdiyev canlandırıblar.

Qeyd edək ki, 11-ci Beynəlxalq İzmir Teatr Festivalında ümumilikdə 26 tamaşanın nümayişi nəzərdə tutulur.

# Mingəçevir səhnəsində "Açarını itirənlər"

Dekabrın 2-də Mingəçevir Dövlət Dram Teatrında "Açarını itirənlər" lirik komediyanın premyerası olub.



Yazıçı Əhməd Orucoğlunun eyniadlı əsərinə teatrın baş rejissoru Vüsal Mehrəliyev quruluş verib. Səhnə işinin quruluşçu rəssamı Pakizə Adilbəyli, musiqi tərtibatçısı Elnur Rəsulov, rəqslərin quruluşçusu Eyvaz Əliyevdir.

Toydan qayıdan ər (Natiq Fərzəliyev) və arvad (Aytən Gəncəli) mənzillərinin açarlarını tapa bilmirlər. Açar axtarışında onların başına maraqlı əhvalatlar gəlir. Gah küçədə atışma olur, gah kişinin ayağını it qapır, gah da saxta lotereya bileti tapırlar. Bütün bu hadisələr situasiyaya görə hərəkət edən heykəllərin müşayiəti ilə tamaşanı daha da rəngarəng və komik edir. Hadisə açarın tapılması ilə başa çatır.

# Qazax teatrında "Dosya" açılır

Qazax Dövlət Dram Teatrında azərbaycanlı tamaşaçı auditoriyasına yaxşı tanış olan türkiyəli dramaturq Tuncer Cücenoğlunun "Dosya" əsəri əsasında eyniadlı tamaşa hazırlanır.

Tamaşanın quruluşçu rejissoru Əməkdar artist Xəzər Gəncəli, quruluşçu rəssamı Aysan Omarovadır.

Premyerası dekabrın sonuna nəzərdə tutulan səhnə işində rolları Əməkdar artist Hacı Hacıyev, aktyorlar Sərdar Rüstəm, Xanım Məmmədova, Aytac Cəfərova, Məlahət Süleymanova, Zəmanə Dərviş, Yusif Qoca və digərləri canlandırırlar.

Əsərdə cəmiyyətdəki mənfi xüsusiyyətlər, ələlxüsus da korrupsiyaya qarşı mübarizə ön plana çıxır. Rejissor tamaşaya kino elementləri də əlavə edib.

# Qusarda "Sus"mayanlar

Xəbər verdiyimiz kimi, Mədəniyyət Nazirliyinin layihəsi çərçivəsində rejissor Abdulla Elşadlı Qusar Dövlət Ləzgi Dram Teatrına ezam edilmişdi.

Bölgə teatrlarını inkişaf etdirmək və məramlı layihənin davamı olaraq rejissor bir ay ərzində yerli aktyor truppasına dərslər keçib və Cəlil Məmmədquluzadənin "Eşşəyin itməkliyi" povestinin motivləri əsasında "Sus" adlı tragi-fars səhnələşdirib.

Biraylıq yaradıcı mübadilənin nəticəsi olaraq dekabrın 4-də "Sus" tamaşaçıların ixtiyarına verilib.

Epik üslubda hazırlanan tamaşada quruluş müəllifi ədəbi əsərdən fabulanı saxlasa da, hadisələr Danabaş kəndindən Qusara köçürülüb. Tamaşanın səhnə tərtibatını teatrın baş rəssamı



Bədəl Bədəlov verib. Rolları truppanın üzvləri Tofiq Mustafayev, Yalçın Qaraxanov, Bədəl Bədəlov, Yeganə Kərimova, Ramella Mahmudova, Pirverdi Pirverdiyev, Tacir Şahbazov, Yura Kərimov, Samir Babayev, Elnur Hacıyev, Bağır Əhmədov, Malik Ramazanov və başqaları ifa edirlər.

**Hazırladı: Həmidə Nizamiqızı**

"Heydər Əliyev İli"

# Mədəniyyətimizin böyük hamisi



Ümummilli lider Heydər Əliyev böyük siyasətdə olduğu bir qərinədən artıq dövrdə, doğma xalqının taleyində tarixi rol oynamaqla bərabər, mədəni irsimizin qorunması və zənginləşdirilməsi, milli incəsənətin, ədəbiyyatın inkişafı, respublikada mədəni-maarif işinin qabaqcıl səviyyədə təşkili sahəsində də müstəsna xidmətlər göstərib.

Heydər Əliyevin mədəniyyətə diqqət və qayğısı onun dövlət xadimi kimi fəaliyyətinin bütün mərhələlərində – sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə, Moskvada, SSRİ rəhbərliyində çalışdığı vaxtda və müstəqil Azərbaycana onillik prezidentliyi dövründə tarixin yaddaşına çoxsaylı səhifələrlə yazılıb. O, hər zaman və hər yerdə Azərbaycan mədəniyyətinin böyük hamisi olub. Bununla bağlı illərin xronikasından seçdiyimiz məqamları "Heydər Əliyev İli"nə töhfə olaraq diqqətinizə təqdim edirik...

## İllərin xronikasından (84)

### 1999-cu il 16 fevral

Prezident Heydər Əliyev "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyi üzrə Dövlət Komissiyasının iclasına sədrlik edib.

*"...Bu gün bütün çıxışlarda bir daha qeyd olundu ki, "Kitabi-Dədə Qorqud" dastanı Azərbaycan tarixinin, mədəniyyətinin, elminin, ədəbiyyatının ən görkəmli, ən parlaq abidəsidir. O, tarixi köklərimizi dünyaya göstərir, oğuz, türk mənşəyimizi və zəngin tariximizi sübut edir. Məlumdur ki, XX əsrdə Azərbaycan xalqı bir çox tarixi hadisələri yubileylərlə, yaxud başqa tədbirlərlə qeyd edibdir. Ancaq təəssüflə deyə bilərik ki, "Kitabi-Dədə Qorqud" dastanı Azərbaycanın həyatında özünəməxsus yeri indiyə qədər tutmayıbdır. Bunun da səbəbləri məlumdur. Tariximizin, o cümlədən ədəbiyyat, mədəniyyət tariximizin həmişə ideologiya təsiri altında qalması, bu barədə bizim sərbəst olmamağımız vaxtilə belə böyük itkilərə gətirib çıxarmışdı...*

*Bununla yanaşı, bu gün məmnuniyyətlə qeyd etmək lazımdır ki, Azərbaycanın vətənpərvər alimləri, tədqiqatçıları, yazıçıları, şairləri "Kitabi-Dədə Qorqud" dastanı haqqında öz imkanları dairəsində əsərlər yaratmışlar və "Kitabi-Dədə Qorqud"un tədqiqatı aparılmışdır. Ancaq buna dövlət himayəsi istənilən səviyyədə olmamışdır...*

*Burada artıq qeyd olundu ki, Həmid Araslının, Məmmədhüseyn Təhmasibin, Əbdüləzəl Dəmirçizadənin və başqa alimlərin yazdıqları əsərlər "Kitabi-Dədə Qorqud" dastanının elmi tədqiqi və geniş təbliğ edilməsi üçün böyük xidmətlər göstərmişdir. Başqa bir çox alimlərin də adını çəkə bilərik. Bizim hörmətli alimlərimiz burada çıxış etdilər və öz tədqiqatları, yazdıqları əsərlər barədə məlumat verdilər. Bunlar hamısı çox qiymətlidir.*

*"Kitabi-Dədə Qorqud"un elmi nöqteyi-nəzərdən tədqiq edilməsi bizim üçün çox lazımdır. Eyni zamanda, "Kitabi-Dədə Qorqud" Azərbaycan ictimaiyyəti, xalq üçün tanınmalıdır. Mən bu baxımdan Anarın xidmətlərini xüsusi qeyd etmək istəyirəm. Anarın bu münasibətlə yaratdığı filmi də qiymətləndirirəm.*

*...Hər bir tarixi hadisəni elmi kitablardan da tapıb oxumaq olar. Amma hər bir insan elmi kitablardan istifadə edə bilmir. Son onilliklərin təcrübəsi onu göstərir ki, geniş kütlə, xalq üçün tarixi hadisələri izah, təbliğ etməkdən ötrü ən gözəl vasitə onlar haqqında filmlərin, səhnə əsərlərinin yaranmasıdır. Ona görə də tarixi mövzuda yaradılan əsərlər, filmlər çox qiymətlidir. Şübhəsiz ki, Anarın yaratdığı "Dədə Qorqud" filmi də çox qiymətlidir... Mən burada irəli sürülən təkliflərlə tamamilə razıyam ki, "Kitabi-Dədə Qorqud" haqqında böyük bir serial yaratmaq olar. Bu təklifi dəstəkləyirəm, qəbul edirəm və biz belə bir serialın yaranması üçün lazımi vəsait taparıq. Yəqin ki, bu, tədbirlər planında öz əksini tapmalıdır və bu barədə işlər görülməlidir.*

*Beləliklə, indiyə qədər görülən işləri yəqin ki, "Kitabi-Dədə Qorqud"un tarixinin öyrənilməsinin birinci mərhələsi hesab etmək olar. Yəqin ki, ikinci mərhələ "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyinin keçirilməsi haqqında verilmiş fərmandan başlanır. Bu fərmanın ən böyük əhəmiyyəti ondan ibarətdir ki, birincisi, biz bütün dünyaya nümayiş etdirir və bildiririk ki, bəli, "Kitabi-Dədə Qorqud" dastanının azı 1300 il yaşı vardır. İkincisi, onu bildiririk ki, "Kitabi-Dədə Qorqud" dastanı Azərbaycan xalqına, bütün Türk dünyasına məxsusdur. Ancaq onun vətəni Azərbaycandır.*

*Hesab edirəm ki, 1997-ci ildə verilmiş fərman gələcək çox illər, on illər üçün böyük perspektiv açıbdır. Biz böyük bir perspektiv plan hazırlamalı və onu ardıcıl surətdə həyata keçirməliyik.*

*...Burada irəli sürülən təkliflər çox dəyərlidir. Məsələn, mən bu fikirlə razıyam ki, Dədə Qorquda adi bir heykəl qoymaq o qədər də məqsədəuyğun olmazdı. Böyük bir kompleks yaratmaq, onun üçün münasib yer seçmək olar... Sonra orada cürbəcür başqa abidələr də yaratmaq olar. Memarlarımız, heykəltaraşlarımız, rəssamlarımız bu barədə düşünməlidirlər...".*

### 1999-cu il 21 fevral

"Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyi üzrə Dövlət Komissiyasının tədbirlər planı haqqında sərəncam imzalayıb.

Xalq artisti, bəstəkar Süleyman Ələsgərovu 75 illik yubileyi münasibətilə təbrik edib.

### 1999-cu il 23 fevral

Cəfər Cabbarlının 100 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalayıb.

### 1999-cu il 27 fevral

Azərbaycan rəssamlıq sənətinin inkişafındakı xidmətlərinə görə Xalq rəssamı Oqtay Sadıqzadənin "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında fərman imzalayıb. Rəssamı yaradıcılığının 60 illiyi münasibətilə təbrik edib.

### 1999-cu il 4 mart

Görkəmli qazax yazıçısı, ictimai xadim, Qazaxıstanın İtaliya və Yunanıstandakı səfiri Oljas Süleymenovu qəbul edib.

### 1999-cu il 7 mart

Elm, mədəniyyət, incəsənət xadimlərinə və ictimai xadimlərə "İstiqlal" və "Şöhrət" ordenlərini təqdim edib.

"İstiqlal" ordeni ilə təltif edilənlər arasında mərhum akademik Ziya Bünyadov (orden alimin həyat yoldaşı Tahirə xanıma təqdim edilib), Xalq artisti Leyla Bədirbəyli; "Şöhrət" ordeni alanlar arasında Xalq artistləri – xanəndə Tükəzban İsmayılova, bəstəkar Süleyman Ələsgərov, Xalq rəssamı Oqtay Sadıqzadə, tarixçi professor Yaqub Mahmudov da var idi.

### 1999-cu il 12 mart

Azərbaycanda Dağıstan Mədəniyyəti Günləri çərçivəsində Respublika Sarayında Dağıstan incəsənət ustalarının konsertinə baxıb, konsertdən sonra yaradıcı heyətlə görüşüb.

### 1999-cu il 13 mart

Prezident Sarayında Xalq rəssamı Oqtay Sadıqzadəni qəbul edib. Rəssam Heydər Əliyevə onun yenidən prezident seçilməsi münasibətilə çəkdiyi portretini, habelə Xalq rəssamı mərhum Elmira Şahtaxtinskayanın mənzərə janrında iki əsərini təqdim edib. Oqtay Sadıqzadə həmçinin dövlət başçısından Nizami adına Ədəbiyyat Muzeyinin təmiri üçün köməklik göstərilməsini xahiş edib.

*"...Muzey haqqında dediyiniz məlumatı nəzərə alaram. Mən bilmirdim, heç kəs mənə deməyibdir. Yəqin ki, bir tədbir görmək lazımdır. Doğrudan da, o, nadir bir binadır, unikal muzeydir. Oranı qorumaq, saxlamaq lazımdır...".*

**Hazırladı: V.Orxan**

*(davamı var)*

№91 (2060)
8 dekabr 2023
www.medeniyyet.az

# İstedad, məsuliyyət və zəhmətdən yaranan sənət

Dekabrın 10-u görkəmli opera müğənnisi, Xalq artisti Gülxar Həsənovanın anadan olmasının 105-ci ildönümüdür. O, məlahətli səsi və bənzərsiz sənətkarlığı ilə sənətsevərlərin yaddaşında silinməz iz buraxıb.

Gülxar İbrahim qızı Həsənova 1918-ci il dekabrın 10-da Şəmkir rayonunun Bayramlı kəndində anadan olub. 1935–1937-ci illərdə Bakı Teatr Texnikumunda oxuyub, 1959-cu ildə Azərbaycan Dövlət Universitetini (indiki Bakı Dövlət Universiteti) bitirib. 1936–1942-ci illərdə Gənc Tamaşaçılar Teatrının solisti olub. Səhnədə yaratdığı obrazlarla diqqəti cəlb edən Gülxar Həsənovanın istedadı dahi bəstəkar Üzeyir Hacıbəylinin də gözündən yayınmır. Tamaşaların birində gənc aktrisanın çıxışını diqqətlə izləyən Üzeyir bəy onun məlahətli səsini yüksək qiymətləndirərək Opera və Balet Teatrında çalışmasını tövsiyə edir. Sənətkar bu barədə deyib: "Məni filarmoniyada keçirilən konsertə dəvət etdilər ki, orada çıxış edim, Üzeyir bəy səsimi dinləsin. Mən səhnəyə çıxdım. Amma məni heç kim tanımırdı. Nə adım çəkiləndə, nə də səhnəyə çıxanda heç kim məni alqışlamadı... Elə ki başladım oxumağa... Ani sükutdan sonra alqış sədaları kəsilmək bilmirdi. Utandığımdan mahnını tez qurtarmaq üçün "Bayatı-Şiraz"ın ortadakı şöbəsini oxumadım. Üzeyir bəy o vaxt İncəsənət İdarəsinin (indiki Mədəniyyət Nazirliyi) rəhbəri Mirzə İbrahimovla lojada oturub mənə qulaq asırdı. Konsert qurtarmamış məni filarmoniyanın direktorunun otağına çağırdılar. Fikirləşdim ki, yəqin mahnını yarımçıq oxuduğum üçün danlayacaqlar. Narahatçılığa səbəb olmadı, əksinə, Üzeyir Hacıbəyli ilə Mirzə İbrahimov məni təbrik etdilər. Üzeyir bəy soruşdu ki, bəs niyə yarımçıq oxudun, axı yaxşı oxuyurdun?! Utandığımı söylədim və fikirləşdim ki, bəlkə tamaşaçıların heç xoşuna gəlmir, bu səbəbdən də mahnını tez qurtardım... O, sözümü kəsərək,
– Yox, qızım, çox yaxşı oxudun, təbrik edirəm. Sən sabahdan operaya gələrsən, – dedi. Orada isə bədii şuranın iştirakı ilə, başda İsmayıl Hidayətzadə olmaqla, Bülbül Məmmədov, Ələvsət Sadıqov, Məmmədtağı Bağırov, Hüseynağa Hacıbababəyov, Əşrəf Həsənov, Əfrasiyab Bədəlbəyli və Qurban Pirimov səsimə qulaq asıb, xarici görkəmimə baxıb məni Opera Teatrına qəbul etdilər...".





Beləliklə, G.Həsənova səhnə fəaliyyətinə Opera və Balet Teatrında davam edir. 1942-ci ildən ömrünün sonunadək bu teatrın solisti, 1980-ci ildən isə Gənc Tamaşaçılar Teatrının məşqçi pedaqoqu olur.

G.Həsənova milli operalarda aparıcı partiyalarda çıxışları ilə tamaşaçıların rəğbətini qazanıb. "Leyli və Məcnun"da Leyli və Leylinin anası, "Əsli və Kərəm"də Əsli, "Koroğlu"da xanəndə qız, "Aşıq Qərib"də Şahsənəm, "Şah İsmayıl"da Ərəbzəngi, "Bahadır və Sona"da Təravət xanım, "Arşın mal alan"da Telli, "Vaqif"də Qarı, "Gəlin qayası"nda Ana kimi yaddaqalan obrazlar yaradıb.

Ömrünün yarım əsrdən çox bir dövrünü opera ifaçılığına həsr edən müğənni sənətinin çətinliyi barədə sonralar belə deyirdi: "1941–1945-ci illərin müharibə dövrü sənətçilər üçün də ağır, məşəqqətli zaman idi. Tez-tez cəbhə bölgələrində olurduq. Çalışırdıq ki, əsgər oğullarımıza mənəvi dayaq olaq. Bu çıxışların əsas təşəbbüsçüsü də Üzeyir bəy idi. O, bizim vətənpərvərlik ruhumuzu daha da artırırdı. Üzeyir bəy elə bir şərait yaratmışdı ki, səhnə də bizim üçün bir cəbhəyə çevrilmişdi. Yadımdadır, 1943-cü il idi. Mən Ələvsət Sadıqovla "Leyli və Məcnun" operasını oynamalı idim. Tamaşadan əvvəl acı bir xəbər eşitdim. Cəbhədən qardaşımın qara kağızı gəlmişdi. Mənimlə bərabər bütün yoldaşlarım da sarsıldılar. Onlar elə bildilər ki, tamaşa təxirə düşəcək. Amma yox, elə olmadı. Mən özümdə güc toplayıb həmin gün tamaşanı oynadım. Bəlkə əvvəlkilərdən daha da yaxşı. Çünki mənim həyatdakı acılarım Leylinin kədərli taleyi ilə üst-üstə düşürdü. Bu qəm-kədər yaxınlığı məni Leyli obrazı ilə daha da doğmalaşdırırdı...".

Musiqişünas Səadət Təhmirazqızı G.Həsənova ilə bağlı məqaləsində onunla tərəf-müqabil olmuş Xalq artisti Canəli Əkbərovun xatirələrini diqqətə çatdırır: "Sənətkar üçün vacib olan bir neçə amil var. Bunlardan ən başlıcası istedad, məsuliyyət və zəhmətdir. Bu keyfiyyətlər də Gülxar xanımda üstünlük təşkil edirdi. Odur ki, o, nümunəvi bir sənətkar idi. Xoşbəxtəm ki, belə sənətkarla bir yerdə çalışmaq mənə nəsib olub. M.Maqomayevin "Şah İsmayıl" operasında mən Şah İsmayıl, o isə Ərəbzəngi rolunda çıxış etmişik. Gülxar xanım bu obrazı o qədər canlı oynayırdı ki, bəzən mən səhnədə olduğumu unudub onun sənətinin sehrinə dalaraq az qala tamaşaçıya çevrilirdim. Bu obraz ona çox yaraşırdı. Unudulmaz sənətkarımız Həqiqət Rzayevadan sonra Ərəbzəngi obrazının ən mahir ifaçısı məhz Gülxar Həsənova idi".

Məlahətli səsi, təkrarolunmaz səhnə mədəniyyəti ilə musiqi və teatr sahələrində xidmətləri yüksək qiymətləndirilən müğənni 1954-cü ildə "Əməkdar artist", 1982-ci ildə "Xalq artisti" fəxri adlarına, 1998-ci ildə "Şöhrət" ordeninə, 2002-ci ildə isə Prezidentin fərdi təqaüdünə layiq görülüb.

Gülxar Həsənova 2005-ci il martın 30-da Bakıda vəfat edib, II Fəxri xiyabanda torpağa tapşırılıb. Dövlət başçısının 2018-ci ildə imzaladığı sərəncamla sənətkarın 100 illik yubileyi geniş şəkildə qeyd olunub.

**Hazırladı: N.Məmmədli**

# "Önəmli olan təkcə tarixi tikilinin deyil, mühitin mühafizəsidir"

## Fuad Axundov: "Hər hansı bina nə qədər gözəl olsa da, məni o binalarda yaşamış və ya yaşayan insanların taleləri daha çox maraqlandırır"

İçindən gələn çağırışın ardınca getmək, nüfuz, mənafe, mövqe, dəb anlamlarına heç bir önəm vermədən daha yaxşı bacardığın, özünü ən dolğun məzmunda ifadə etdiyin və nəhayət, başqalarının deyil, məhz özünün zəruri saydığın işlə məşğul olmaq hər kəsə nəsib olan daxili azadlıq təntənəsi deyil. Fuad Axundova bu, nəsib olub. Onun "Bakı sirləri", "Əsrlər, nəsillər" kimi telelayihələri tarixi yaddaşın korşalmasının qarşısını alan, vətənpərvərlik duyğularına yeni nəfəs gətirməklə yanaşı, televiziya estetikamızda da fərqli bir səhifə yazmağa başladı. Fuad müəllimlə bu səhifənin yazılmasını şərtləndirən dönəmlərdən danışdıq.

### Ərəbşünas

*– Təlim-tərbiyəsində vətəndaşlıq, vətənpərvərlik duyğusu olan hər kəs yaşadığı məkanı sevir. Bu sevgini başqaları ilə bölüşmək kimi fəaliyyətinizin tarixçəsini bilmək maraqlıdır.*

– Əslində mən şəhərin mərkəzində böyüməmişəm. Uşaqlığım indiki Mirəli Qaşqay, o vaxtkı Solntsev küçəsində keçib. Bakının tarixinə vurğunluq hissi isə Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin birinci kursunda oxuyanda başladı. Mən universitetə qəbul olanda fakültə BDU-nun indiki binasında deyil, əvvəlki binada, Əlyazmalar İnstitutunun, keçmişdə Hacı Zeynalabdin Tağıyevin Qızlar məktəbi olmuş binada yerləşirdi. O binanın energetikası, inşa edilmə tarixinin aurası elə güclü idi ki, artıq 1980-ci illərin ortaları, qarışıq bir dövr olduğu üçün isitmə sisteminin işləməməsi belə kəskin hiss olunmurdu. Düzdür, dərslərdə üst geyimində otururduq. Köhnə Bakıya vurğunluq, maraq, araşdırma həvəsi içimdə baş qaldırsa da, qadağalar buna imkan vermirdi. Birinci kursu bitirəndən sonra əsgərliyə getdim. 88-ci ildə əsgərlikdən qayıdanda Bakıda vəziyyət çox pis idi. O dərəcədə pis idi ki, bu, tədris prosesinə də təsir etmişdi. Ona görə hesab edirəm ki, dolğun təhsilim birinci kursla tamamlandı. Ərəb dili fakültəsində təhsil alsam da, birinci kursdan sonrakı tədrisin yarıtmaz olması, sonrakı dövrdə bu dili istifadə etməməyim səbəbindən ərəb dili mənimçün ölü doğulmuş uşaq kimidir.

Və məhz bu dövrdə məndə paytaxtımızın memarlıq ənənələrinə yaranan maraq və sevgi özünə bir cığır tapdı. İlk araşdırmalarım da onda başladı. Çünki qarışıq, ağır, depressiv dövr olmasına baxmayaraq, artıq qadağalar yox idi – binalara daxil olurdum, sakinlərlə görüşüb söhbət edirdim, bəxtim lap çox gətirəndə binanın keçmiş sahiblərinin varisləri ilə də ünsiyyət alınırdı. O adamlar sovet dövründə çox sıxışdırılmış vəziyyətdə yaşasalar da, ailəvi əşyaları, fotoları, ən əsası isə zadəgan nəslinə xas olan qürur hissini qoruyub-saxlamışdılar. Və bütün bunları mənimlə bölüşürdülər. Fotoları Dövlət Kino-Foto Arxivinə aparırdım, orda onların surətini çıxarıb fonda daxil edirdilər, orijinal nüsxələri isə gətirib sahiblərinə qaytarırdım. Arxivlər isə öz növbələrində mənə fondlarından istifadə etmək imkanı yaradırdı ki bu da gələcəkdə ekskursiyalarımın, tarixi-sənədli telelayihələrimin daha da məzmunlu olmasına imkan verdi. Mənim 750-dən çox fotodan ibarət şəxsi arxivim toplanıb, bu arxivdəki fotoların bir qismi arxivdən, bir qismi muzeylərdən, bir qismi isə tarixi şəxsiyyətlərimizin varislərindən əldə edilib. Hər hansı bina nə qədər gözəl olsa da, məni o binalarda yaşamış və ya yaşayan insanların taleləri daha çox maraqlandırır. O adamlarla görüşlərdən, söhbətlərdən sonra həmin bina sanki canlanırdı. Bina, binanın sahibi və sahibin timsalında dövr – tam mənzərə belədir.

### Pedaqoq

*– Qısa müddət pedaqoji fəaliyyətiniz də olub. Həmin dövr nə verdi sizə?*

– Bu, təsadüfən alınmışdı. Əslində, mən bir müəlliməni axtarırdım ki, onun xələfləri haqqında məlumat toplayım. O da şəhərin mərkəzində yerləşən məktəblərdən birində işləyirdi, 189 nömrəli məktəbdə. Söhbət 1992-ci ildən gedir. O illəri xatırlayanlar məni yaxşı anlayarlar. Yadımdadır, məktəbdə işləməyə başlayanda mənə dedilər ki, elə et, şagirdlər sakit otursunlar. Mən də onlara Bakının memarlıq tarixi haqqında müxtəlif əhvalatlar danışmağa başladım. Bu əhvalatlar hansısa uzaq məmləkətə aid olmadığı, sinfin pəncərəsindən görünən şəhərlə bağlı olduğu üçün uşaqlarda maraq yaratdığını müşahidə etdim. Bu məni çox həvəsləndirdi. O vaxtdan uşaqlarla kiçik bir eksperiment keçirməyə başladım – onları şəhər gəzintilərinə çıxardım. Mənim sonralar başlayan və indiyə qədər davam edən ekskursiya fəaliyyətimin təkan qüvvəsi məhz məktəblilər olmuşdu. Hətta deyərdim ki, onlar bir növ sınaq modeli rolunu oynayırdılar – uşaqlara maraqlı olduğunu görəndə ekskursiyalarımın auditoriyasını genişləndirdim. Çünki, doğrudan da, uşaqların "biz bu şəhərdə doğulmuşuq, böyümüşük, amma bu binalar, bu küçələr haqqında heç nə bilmirdik" kimi etirafları, doğma şəhərin küçələrini gəzdikcə gözlərinin açılması çox ruhlandırıcı idi. Buna görə ilk ekskursiyalarımı məhz onlar üçün təşkil etdim. İndi də olur belə ekskursiyalarım. İkinci ixtisasımın müəllimlik, rus dili və ədəbiyyatı müəllimi olmasına da, görünür, bu ünsiyyətin, bu təcrübənin təsiri olmuşdu.

### İnterpol polkovnik-leytenantı

*– Bir ərəbşünas və müəllimin İnterpolda fəaliyyətə başlaması necə baş verdi?*

– Təsadüfən… Dediyim kimi, 90-cı illərdə pedaqoji fəaliyyət göstərirdim. Amma müəllimlərin maaşı o dövrdə az idi. Elə həmin illərdə Azərbaycan İnterpola üzv oldu. Mən də bu quruma cəlb olundum. Orada çox gözəl bir mühit var idi. 14 il İnterpol əməkdaşı kimi fəaliyyətdə oldum, 1993-cü ildən ta mühacirətə, 2007-ci ilə qədər. Polkovnik-leytenant rütbəsinə kimi yüksəldim. Rəhbərlik sarıdan bəxtim gətirdiyi üçün – indiyə qədər onlara minnətdaram – orada çalışa-çalışa ekskursiyalarıma da vaxt ayırırdım. Fəaliyyət sahələrim fərqli olsalar da, biri digərini istisna etmirdi. Bakının tarixi ilə bağlı araşdırmalar, ekskursiyalar mənə özümü ifadə etməkdən ötrü çox vacib idi. 2006-cı ildə bu özünüifadəm "Bakı sirləri" televiziya verilişinədək böyüdü.

Belə... Gördüyünüz kimi, mənim təhsilim, ixtisaslarım, çalışdığım və özümü ifadə etdiyim sahələr, yerlər tamamilə fərqlidir.

*– İnterpolda çalışmağınız araşdırmalarınıza kömək etdimi?*

– Xeyr, qətiyyən. Bu iki fəaliyyət sahələrini heç vaxt qarışdırmamışam bir-birinə. Hər biri müstəqil, paralel cığır olub. Eləcə də digər ixtisaslarım.

### Dövlət idarəetmə mütəxəssisi

*– Digər ixtisas dedikdə, yəqin ki, bir də Harvard Universitetindəki təhsilinizi nəzərdə tutursunuz…*



– Bəli. İnterpolda işlədiyim dövrdə Harvard Universitetində dövlət idarəetmə ixtisası üzrə birillik təhsil dövrü də oldu. Amma bu mənə heç nə vermədi. Və problem qətiyyən Harvardda deyil, problem məndədir. O universitetə oxumağa gələnlər karyera planları ilə gəlirlər. Mənim belə bir planım yox idi – İnterpoldan Harvarda getdim, Harvarddan İnterpola qayıtdım. 20 il keçəndən sonra özümdən soruşuram ki, Harvard nə ilə yadımda qalıb? Xatirələrdən, assosiasiyalardan biri buz meydançasıdı, digəri avarçəkmə. Bundan ötrü Harvarda getməyə ehtiyac yox idi.

*– "Dronqo" filmi çəkiləndə sizin baş rola namizədliyiniz nəzərdən keçirilməmişdi ki? Ümumiyyətlə, filmə çəkilmək təklifi almısınız?*

– Yox, "Dronqo"ya çəkilmək təklifi almamışam. Çünki mən İnterpolda operativ əməliyyatçı deyildim. Filmə çəkilmək təklifinə gəldikdə, olub belə təkliflər. Amma bədii kino məni heç vaxt cəlb etməyib – bədii filmə ya gərək çox yüksək səviyyədə çəkiləsən, ya da heç çəkilməyəsən. Ona görə bədii kino mənumçün bir qədər sürüşkən müstəvidir ki, ora qədəm basmaq istəmirəm. Mən sənədli kinoda özümü görürəm. Sənədli kino mənimçün ağ-qara foto kimidir. Bədii kino isə sadəcə rəngli fotodur. Sənədli kinodan çox böyük həzz alıram. Təəssüf ki, "Əsrlər, nəsillər" telelayihəsini davam etdirməyə sponsor yoxdur. Bu işi məmnuniyyətlə davam etdirərəm, çünki tarixi-sənədli kino yaradıcılığından çox böyük zövq alıram. Artıq neçə illərdir eyni rejissorla çalışıram: Mirsadıq Ağazadə. Amma biz ikimiz bir maşının iki çarxıyıq sanki. Təbii ki maşının hərəkətə gəlməsi üçün dörd çarx olmalıdır. Digər iki çarx prodüserlə sponsordur. Onlar da olanda fəaliyyətimizi davam etdirəcəyik. O filmlərin çəkiliş prosesləri son dərəcə maraqlı idi. Təbii ki, o filmlərin gəlir gətirmək mexanizmi olsaydı, belə bir fasilə yaranmazdı…

### Mühacir

*– Kanadaya mühacirət etməyinizin səbəbi nə idi?*

– Mühacirətim Bakıda tüğyan edən tarixi binaların, memarlıq dəyəri olan tikililərin sökülmə, eroziyaya uğrama hallarına bir növ etiraz idi. Yüz il əvvəlki neft bumu dövründə inşa edilmiş memarlıq inciləri yüz il sonra yeni neft bumu dövründə dağıdılırdı. Şükürlər olsun ki, tarixi binaların kütləvi sökülməsi halları xeyli səngiyib. Amma yenə də bunun institusional mexanizmi tapılmalı və çox ciddi diqqət ayrılmalıdır bu məsələyə. Əlbəttə, müasir memarlığı inkar etmək mümkün deyil. Köhnədən imtina da qaçılmazdır. Amma bunun münbit məcrası tapılmalıdır. Heç nə kor-koranə olmamalıdır. Konkret məkanın xüsusiyyətləri, tarixilik mütləq nəzərə alınmalıdır. Tarixi binanı söküb yerində "göydələn" tikmək mənim dünyagörüşümə, mənim məntiqimə sığmır. Yeri gəlmişkən, Torontoda köhnə binaların fasadını qoruyub-saxlayaraq yerində yeni bina inşa edirlər. Bu təcrübə bir çox ölkələrdə çoxdan tətbiq olunur. Bizdə nədənsə yerlə yeksan etməyə meyillidirlər.

*– Ekskursiya və görüşləriniz haqqındakı xəbərlərdən belə bəlli olur ki, siz daha çox Bakıda olursunuz, nəinki Kanadada...*

– Son illər, bəli. Mən özümü Azərbaycanda, vətənimdə rahat hiss edirəm. Burda dolanışığımı qurmaq mənimçün sadəcə, maddi ehtiyaclarımı ödəmək anlamına gəlmir. Ən əsası, mən televiziya verilişlərindən, ekskursiyalardan, araşdırmalardan hədsiz zövq alıram. Özümü realizə imkanı tapıram. Mən Kanadaya isinişə bilməməyimi deyəndə bəziləri məni köhnə rus təbliğatçılarının düşüncələrinə qapılmaqda qınayırlar...

*– Bu yadlıq hissi başqa bir ölkəyə mühacirət etsəydiniz də sizinlə olacaqdı, necə düşünürsüz?*

– Yəqin ki… İstənilən liberal-demokrat cəmiyyət mənə yad olaraq qala bilər. Halbuki bu cür cəmiyyət çox rahat cəmiyyətdir. Yenə də deyirəm: problem Kanadada deyil. Problem məndədir. Bu qavrayışım yanlış da ola bilər. Kanadadakı multikulturalizmin kökü yoxdur. Çünki mühacirlər cəmiyyətidir. Mən də görünür vasvası "bitki"yəm, hər torpaqda "kök ata" bilmirəm.

### Vətən sevdalısı

*– Əlbəttə, insan üçün münbitlik anlayışı daha dərin bir hissdir.*

– Bəli. Abşeron torpağı nə qədər şoran olsa da, mən burda "kök atıb böyüyə bilən ağaclar"danam. Bakıda hansısa tarixi binanın sökülmə təhlükəsi ilə üz-üzə qaldığını görəndə gecələr gözümə yuxu getmir. Məsələn, ən sonuncu belə hal Bayılda 1906-cı ildə "Xalq evi" kimi inşa edilmiş binanın şəxsi mülkiyyətə keçəndən sonra yer üzündən silinməsi təhlükəsi idi. Bütün bunlar o demək deyil ki, mən böyük bir vətənpərvərəm. Sadəcə, çox istəyirəm ki, Azərbaycan dövlətçiliyi günü-gündən möhkəmlənsin ki, özünü məhz burda realizə etmək istəyən vətəndaşlarının münbit atmosferi olsun. İnsan kədərinə kədərlənməyi, sevincinə sevinməyi bacardığı yerdə yaşamalıdır. Arzuladığımız, xəyallarımızda canlandırdığımız Zəfəri 30 ildən sonra əldə etməyimiz, sözsüz ki, qarşımızda yeni imkanlar açır. Ümid edirəm ki, bu imkanlardan düzgün istifadə edəcəyik.

Dostlarımdan biri memar Elçin Əliyev memarlıq abidələrinin və tarixi küçələrin bərpası ilə məşğuldur. Bu, son dərəcə gərəkli bir fəaliyyətdir. Etiraf edək ki, bizdə bərpa mədəniyyəti aşağı səviyyədədir. Bizdə bərpa adı ilə "yevroremont" aparırlar. Halbuki bərpa ilə zövqlü mütəxəssislər məşğul olmalıdırlar. Təqdirəlayiq təşəbbüslərdən biri də gənclərin qədim binaların giriş qapılarını bərpa etməsidir...

*– Belə təşəbbüslər binaların giriş meydançalarının bərpası ilə başlamışdı...*

– Bəli. Bilirsiniz, dövlətin mühafizəsindən çıxmış hər hansı tarixi binanın hüquqi sahibinə çevrilib o binanı sökmək və ya görünüşündə radikal dəyişiklik etmək o binanın sahibinin vicdanına, vətəndaşlıq hissinə, dünyagörüşünün genişliyinə bağlı bir məsələdir. Binanı sökməklə, yaxud dəyişdirməklə o, qanunsuz bir iş tutmaqda təqsirləndirilməyə də bilər. Amma halal-haram tərəzisində onun tutduğu iş haramdır. Tarixi, memarlıq cəhətdən dəyəri olan tikilini nəinki sökmək, fasadında dəyişiklik də etmək olmaz, hətta həmin binanın yaxınlığında inşa edilən bina o binanın memarlıq üslubundan da fərqlənməməlidir. Söhbət təkcə binanı sökülməkdən xilas etməkdən getmir. Söhbət mühitin mühafizəsindən gedir.

*– Bakı tarixçələrində sizi ən çox təəccübləndirən, təsirləndirən nə olub?*

– Ailə tarixçələri. Amma onları açıqlamaq istəməzdim.

*– Araşdırmalarınızı kitaba çevirmək çox yaxşı olardı...*

– Çox istərdim ki, araşdırmalara, tədqiqatlara daha çox vaxt ayıra bilim. Təəssüf ki, maddiyatı düşünmək buna imkan vermir. Təbii ki, nə vaxtsa bütün araşdırma və tədqiqatlarımı kitaba çevirmək istərdim. Sağlıq olsun…

*– Bakıya çatan kimi ən birinci baş çəkmək istədiyiniz yer varmı?*

– Çox maraqlı sualdır. Adətən gecə vaxtı gəlib çatıram Bakıya. Və özümdə onu müşahidə etməyə başlamışam ki, bura çatan kimi gözüm "Alov qüllələri"ni axtarır. Halbuki o qüllələr tikiləndə mən çox dilxor olmuşdum, qəbul edə bilmirdim onları. İndi isə Bakıya çatıb onları görəndə rahatlanıram, əmin oluram ki, doğma şəhərimdə əmin-amanlıqdır. "Alov qüllələri" Bakının rəmzinə, döyünən ürəyinə çevrilib. Müasir memarlığın uğurlu ifadəsi kimi özünü təsdiq edib. Yəqin bu "hər bir yenilik unudulmuş köhnəlikdir" deyimi növbəti dəfə özünü büruzə verməsinə görədir – Alov qüllələri də bir növ Bakının 1841-ci ildə qəbul edilmiş gerbinin memarlıq nüsxəsidir.

**Samirə Behbudqızı**

# "Baletdə qurbansız, fədakarlıq etmədən uğur qazanmaq mümkün deyil"

## Əfsanəvi balerina Tamilla Şirəliyeva müsahibimizdir



Yaşımız çatmadı ki, onu səhnədə görüb alqışlaya bilək. Bizim nəslin balet sənəti ilə maraqlanan, Opera və Balet Teatrının bircə premyerasını ötürməyən, qastrolçuların hər çıxışını seyr edən, doğma sənətçilərin yaxın-uzaq səhnələrdəki uğurlarını izləyən nümayəndələri üçün onlar artıq tarixi şəxsiyyət idilər. Bizimlə eyni şəhərdə, eyni ölkədə, eyni dünyada, üstəlik, eyni zamanda yaşasalar da, artıq canlı əfsanəyə çevrilmişdilər.

Qismətə bax ki, həmin canlı əfsanələrdən biri ilə üzbəüz söhbət edirik. Azərbaycanın Xalq artisti, SSRİ Dövlət mükafatı laureatı, "Şöhrət" ordenli Tamilla Şirəliyevanın xudmani mənzilində qonağam.

Müsahibələrindən, yadigar lentlərindən, yetirmələrinin heyranlıq və minnətdarlıq dolu söhbətlərindən tanıdığım Tamilla xanımla ilk dəfə söhbətdaş olduğumdan sualların onun demək olar ki bütün yaradıcılıq karyerasını əhatə edir. Hələ müsahibə üçün razılığa gələndə görkəmli balerinanın qayğısını çəkən köməkçisi, qohumu Sevinc xanım xəbərdarlıq etmişdi ki, Tamilla xanım xaraktercə çox sakit adamdır. Ünsiyyət sevən olsa da, yalnız soruşduqlarınıza qısa və konkret cavab verəcək. Ondan uzun-uzadı etiraflar, kiminsə ünvanına irad, ya da inciklik eşitməyəcəksiniz.

*– Tamilla xanım, çox təəssüf ki, sizi səhnədə görməmişəm, yalnız oynadığınız tamaşalardan fraqmentləri izləmişəm…*

– Eh, mən səhnəyə çıxanda siz yəqin hələ dünyaya gəlməmişdiniz…

*– Elədir. Balet sənətini seçmək, bu çətin və ağır sənətin fədakarı olmaq fikrinə necə düşdünüz?*

– Uşaq idim. Anam baleti çox sevirdi deyə, mənim əvvəlcə rəqs dərnəyinə getməyimi, sonra da xoreoqrafiya məktəbində oxumağımı istədi…

*– Əgər sizin qabiliyyətiniz və həvəsiniz olmasaydı, çətin ki təkcə ananızın istəyi ilə bu mövqeyə çatardınız…*

– Əlbəttə. Əvvəla, balet məktəbinə gələn uşağın orqanizmində elastik toxumanın miqdarı çox olmalıdır ki, bədəni onun sözünə baxsın. Bu, məsələnin fizioloji tərəfidir. Üstəlik, səbirli, dözümlü olmaq, son məqsədə doğru getmək, sənətə sonsuz sevgi, bir də fədakarlıq lazımdır! Əgər incəsənətin digər sahələrində fədakarlıq etmədən də uğur qazanmaq olursa, baletdə qurbansız, fədakarlıq etmədən uğur qazanmaq mümkün deyil!

*– Ən birinci qurban da ömür boyu, yəni səhnədə olduğun qədər xüsusi pəhriz gözləməklə başlayır yəqin…*

– Əslində, biz bu pəhrizə elə məktəbdən alışırıq. Başqa cür mümkün deyil.

*– Məktəbdə müəlliminiz kim olub?*

– Qəmər Almaszadə!...

*– Eşitdiyimə görə, onun kimi ciddi, sərt, güzəştə getməyən pedaqoq olmayıb.*

– Baletdə başqa cür mümkün deyil. Müəllim ki səhlənkar, qeyri-ciddi oldu, heç nə. Onun yetirmələrindən uğur gözləməyə dəymaz.

*– Sonra da teatrda Qəmər xanımın rəhbərliyi altında işlədiniz.*

– Bilirsiniz, əslində, teatrda baş baletmeyster, balet truppasının rəhbəri xoreoqrafiya məktəbindəki pedaqoqun işini davam etdirir. Bu sənət o qədər fərdidir ki, balet artisti karyerasının sonunadək öyrənir.

*– Karyera demişkən, siz bizim teatrda ən uzunömürlü balerinalardan olmusunuz…*

– Balet artistinin səhnə ömrü adətən iyirmi ildir. Amma mən düz 25 il səhnədə oldum. Səhnədə olduğum illərdə də teatrda səhnələşdirilən bütün əsərlərdə əsas partiyaları ifa etdim.

*– İlk rolunuz isə, səhv etmirəmsə, Gülyanaq olub…*



– "Qız qalası" baleti mənim həm diplom tamaşam olub, həm də teatrda ilk tamaşam. Sonralar "Məhəbbət əfsanəsi"ndə Məhmənə banu, "Don Kixot"da Kitri, "Jizel"də Jizel, "Sonalar gölü"ndə Odetta, Odilliya kimi səhnəyə çıxdım.

*– …Və "Min bir gecə"nin ilk Şəhrizadı oldunuz…*

– Şəhrizad çox dolğun obrazdır. Onu çox sevdim. Bu tamaşaya görə bütün yaradıcı heyət SSRİ Dövlət Mükafatına layiq görüldü.

*– Tamilla xanım, Moskvada Kremlin Qurultaylar Sarayında oynadığınız "Min bir gecə" tamaşasının lent yazısına baxmışam. O tamaşa sanki bir uçuş idi, birnəfəsə oynanıldı. Həm də bildiyim qədər həmin tamaşadan ötrü siz riskə də getmisiniz…*

– Hə, o vaxt hamilə idim, sadəcə, Teymurun dünyaya gəlişinə hələ çox var idi deyə, o çıxışımı risk saymırdım…

*– Bu sualı jurnalist yox, bir qadın, ana kimi verirəm: yəni sizin sənət sevginiz övlad sahibi olmaq istəyindən bu qədər güclü idi ki, riskə getdiniz?*

> "Teatrda işlədiyim illərdə tez-tez eyni yuxunu görərdim. Görərdim ki, tamaşada çıxışıma az qalıb, amma mən hələ teatrda deyiləm, gecikirəm. Hər dəfə də təlaşla oyanıb yerimdən dik atılardım. Bir an sonra anlayanda ki yuxu görmüşəm, sakitləşib şükür edərdim…".

– Yox. Sadəcə, ömür boyu bir şeyə inanmışam: olacağa çarə yoxdur. Nə olmalıdırsa, o, mütləq baş verəcək.

*– Mərhum həyat yoldaşınız da sənət aləmindən idi?*

– Yox. O, Mərdəkanda indiki Polis Akademiyasında işləyirdi. Mənim Mərdəkanda kiçik bir mənzilim var idi. Yayda orada qalardım. Yolum da akademiyanın qarşısından keçirdi. Mən o yolu gedib-gələndə diqqətini çəkmişdim. Bir gün qarşımı kəsib tanış olmaq istədi. Beləcə, münasibətimiz yarandı.

*– Nə yaxşı ki, qarşınızda ya səhnə, ya da ailə seçimi qoymadı.*

– O məni sənətimlə birgə qəbul etdi, yəni necə varamsa. Mən də balerina olmaqla yanaşı, evimin xanımı oldum. Heç köməkçim də yox idi. Bütün ev işlərini özüm görmüşəm, yemək də bişirmişəm, oğluma da özüm baxmışam. Yalnız mən qastrola gedəndə qayınanam oğlu ilə nəvəsinin qayğısına qalardı.

*– Hər gözəl sənətçi heç də yaxşı pedaqoq ola bilmir… Özü də balet kimi improvizələrlə, nəzəri bilikdən daha çox fərdi təcrübəyə əsaslanan sahədə...*

– Düz deyirsiniz, hər istedadlı insan yaxşı müəllim ola bilmir, çünki pedaqoji qabiliyyət özü bir istedaddır. Bizim sənətimizdə yaxşı müəllim olmaq üçün gərək xəsis olmayasan, biliyini, təcrübəni, hətta duyumunu tələbələrin uğuruna xərcləməyi bacarasan…

*– Kimi ən sevimli tələbəniz, öz ardıcılınız hesab edirsiniz?*

– Kimləri… (gülümsəyir) Rimma İsgəndərova, Cəmilə Kərimova, Yuliya Ferştandt… Yaxşı tələbələrim çoxdur, amma bu üç qızı hamıdan çox istəyirəm. Onlar da məni heç vaxt unutmurlar. Evdən çıxmaq indi mənim üçün çətin olsa da, Cəmilənin toyuna da getdim, ötən ay isə Yuliya məni "Jizel" tamaşasına dəvət etmişdi. Çox gözəl tamaşa oldu, onun çıxışından razı qaldım.



*– Tamilla xanım, bu yerədək baletin gözəlliklərindən danışdıq, amma əziyyətindən heç söz açmadıq…*

– Əziyyət deyəndə ki, balet artistləri belağrısından, balerinalar isə həm də ayaq ağrısından əziyyət çəkirlər. Nə qədər barmaqlarını qatlayıb yerimək, rəqs etmək olar?! Bəzən tamaşadan sonra puantları çıxaranda görürsən ki, barmaqlarının ucu qanın içindədir. Heç yadımdan çıxmaz, bir dəfə Soçidə qastrolda idik. Gündüz tamaşasından sonra dənizə getdim, sahildə oturub ayaqlarımı suya salladım ki, sızıltısı bir az kəssin. Birdən iki qadın mənə yaxınlaşdı. Demə, onlar bizim tamaşaya baxıbmışlar. Məni tanıdılar, söhbət zamanı soruşdular ki, niyə dənizə baş vurmuram? Ayaqlarımı sudan çəkib onlara göstərəndə dəhşətə gəldilər. Bəli, balet sənətinin belə ağrıları tamaşaçılar görmürlər.

*– 2002-ci ildə Ulu öndər Heydər Əliyev Azərbaycanın görkəmli sənət adamları üçün Prezident təqaüdü təsis etdi və siz həmin təqaüdə layiq görülən ilk sənətkarlardansınız.*

– Mərhum Heydər Əliyev bizim bütün premyeralarımıza gələrdi. Tamaşadan sonra da mütləq səhnə arxasına keçib yaradıcı heyətlə görüşərdi, öz təəssüratını bölüşərdi, yeri gələndə məsləhət də verərdi. O, incəsənəti çox gözəl bilirdi. O ki qaldı təqaüdə, bilirsiniz, çəkdiyin əziyyətin dövlət başçısı, hökumət səviyyəsində qədri bilinəndə hiss edirsən ki, sənətə həsr etdiyin ömrü hədər yaşamamısan…

***

Tamilla xanım ilə çox söhbət edə bilərdik. Sadəcə, əfsanəvi balerina, gözəl pedaqoq 77-ci doğum günü ərəfəsində bir qədər nasaz idi deyə, onu yormaq istəmədik. Bəli, məhz bu gün, dekabrın 8-də Xalq artisti, "Şöhrət" ordenli Tamilla Şirəliyevanın doğum günüdür. Söhbəti onu sevimli sənətindən, cəmiyyət içinə istədiyi qədər çıxmaqdan məhrum etsə də, həyatın gərdişini olduğu kimi qəbul edir. Hətta özümə ehtiyatsız verilmiş kimi görünən "Yuxuda teatrı, səhnəni görürsünüz" sualıma düşünmədən sakitcə, hətta bir qədər etinasız cavab verdi: "Yox, görmürəm". Bir an susub yuxu mövzusunu davam etdirdi: "Teatrda işlədiyim illərdə tez-tez eyni yuxunu görərdim. Görərdim ki, tamaşada çıxışıma az qalıb, amma mən hələ teatrda deyiləm, gecikirəm. Hər dəfə də təlaşla oyanıb yerimdən dik atılardım. Bir an sonra anlayanda ki yuxu görmüşəm, sakitləşib şükür edərdim…".

***

…Müdrik insanlardan biri deyib ki, tale ilə barışmağı bacarmaq güclü olmaq deməkdir. Tamilla xanımla söhbətdən anladım ki, qarşımdakı qadın elə həmin müdrik insanın təsvir etdiyi güclü insanlardan biridir. Haqq etdiyi ünsiyyətə həsrət qalsa da, illərdən bəri ABŞ-də yaşayan yeganə oğlu, nəvəsi üçün darıxsa da, ömrünü həsr etdiyi xoreoqrafiya məktəbindən onu hərdənbir axtarsalar da, bu mövzulardan söz düşəndə sakit, emosiyasız danışdı. Bəlkə də o, əsl sənət adamı kimi bütün emosiyalarını səhnədə, əsl pedaqoq kimi də məşq otağında gen-bol xərcləmişdi deyə, ona görə həyatda bu qədər sakit idi...

Təbii ki, Tamilla Şirəliyevanın doğum gününü oxucularımızın birbaşa təbrik etmək şansı yoxdur. Sadəcə, bu gözəl xanıma Allahdan cansağlığı diləyin, yetər. Sizin təbrikinizi biz çatdırarıq.

**Gülcahan Mirməmməd**

# "Polyaklar Azərbaycanda" – arxiv sənədlərinin sərgisi

Dövlət Tarix Arxivinin sənədləri əsasında hazırlanan "Polyaklar Azərbaycanda" adlı virtual sənəd sərgisi istifadəçilərin ixtiyarına verilib. Bu barədə Milli Arxiv İdarəsindən bildirilib.

Sərgiyə daxil edilmiş sənədlər XIX əsrin sonu – XX əsrin əvvəllərinə aiddir. Həmin dövrdə Azərbaycanda yaşayan polyaklar Bakı şəhərində tikinti-abadlıq işlərində yaxından iştirak ediblər, o cümlədən şəhərin tarixi arxitekturasına öz töhfələrini veriblər. O dönəmlərdə Bakıda polyak memar və inşaatçılar tərəfindən məktəb və kitabxana binaları, ictimai binalar, parklar, bulvarlar və s. layihələndirilmiş və tikilmiş, həmçinin "Polşa evi" adlı cəmiyyət yaradılmışdı. Polyaklar Azərbaycanda həyatın bir çox sahələrinin inkişafında yaxından iştirak etdikləri kimi, həm də öz mədəniyyətlərini ölkəmizdə təbliğ etmişlər.

Sərgi ilə Milli Arxiv İdarəsinin saytında tanış olmaq olar.

Yeri gəlmişkən, dekabrın 6-da Azərbaycanda ilk dövlət arxivinin yaradılmasının 103 ili tamam oldu.

Tarixi keçmişin ən dərin izlərini və əsl həqiqətləri, heç şübhəsiz, arxivlər daşıyır. Bu mənada arxivləri tarixin yaşadığı ev də adlandırırlar.

Azərbaycanda dövlət arxivinin əsası 6 dekabr 1920-ci ildə "Vahid dövlət arxiv fondunun yaradılması və Xalq Maarif Komissarlığı yanında mərkəzi dövlət arxivinin təşkili haqqında" dekretlə qoyulub. 1921-ci ilin yanvarında Bakıda fəaliyyətə başlayan Azərbaycan SSR Mərkəzi Dövlət Arxivi Qafqazda ilk dövlət arxivi olub.

## Xatirə təqvimi 9–12 dekabr

### Azərbaycan

**9 dekabr 1918** – Əməkdar incəsənət xadimi, yazıçı, ədəbiyyatşünas Cəlal Cabbar oğlu Məmmədov (1918 – 4.2.1983) anadan olub. "Azərbaycan" jurnalının baş redaktoru işləyib. Rus ədəbiyyatından Azərbaycan dilinə, Azərbaycan ədəbiyyatından rus dilinə tərcümələr edib.

**9 dekabr 1963** – Rejissor, Əməkdar incəsənət xadimi Lətif Bəşir oğlu Səfərov (30.9.1920 – 1963) dünyasını dəyişib. "Bəxtiyar", "Qızmar günəş altında", "Leyli və Məcnun" filmlərinə quruluş verib.

**9 dekabr 1971** – Bakıda Azərbaycan Teatr Cəmiyyətinin (indiki Teatr Xadimləri İttifaqı) 5-ci qurultayı işə başlayıb. Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi qurultaya təbrik məktubu göndərib.

**9 dekabr 1973** – Xalq artisti, Dövlət mükafatı laureatı Lütfəli Əmir oğlu Abdullayev (22.3.1914 – 1973) vəfat edib. Musiqili Komediya Teatrında fəaliyyət göstərib, filmlərdə yaddaqalan obrazlar yaradıb.

**10 dekabr 1916** – Əməkdar artist Firuzə Xanlar qızı Bədirbəyli (1916-1992) Şəmkir rayonunun Morul kəndində doğulub. Gəncə Dövlət Dram Teatrının aktrisası olub.

**10 dekabr 1918** – Xalq artisti, tanınmış opera müğənnisi Gülxar İbrahim qızı Həsənova (1918 – 30.3.2005) Şəmkir rayonunda anadan olub. Gənc Tamaşaçılar Teatrında səhnə fəaliyyətinə başlayıb. 1942-1980-ci illərdə Akademik Opera və Balet Teatrının solisti olub, filmlərdə, televiziya tamaşalarında çəkilib.

**10 dekabr 1924** – Xalq şairi, dramaturq, Dövlət mükafatları laureatı Nəbi Xəzri (Nəbi Ələkbər oğlu Babayev; 1924 – 15.1.2007) Bakının Xırdalan qəsəbəsində doğulub. Kitabları: "İllər və sahillər", "Ulduz karvanı", "Ağ şimşəklər" və s. "Mirzə Şəfi Vazeh", "Torpağa sancılan qılınc" və s. pyeslərin müəllifidir. Respublika Televiziya və Radio Verilişləri Komitəsinin sədri olub.

**10 dekabr 1935** – Əməkdar rəssam, Dövlət mükafatı laureatı Fikrət Bağır oğlu Bağırov (1935-1996) anadan olub. "Azərbaycanfilm"də kino rəssamı işləyib. Bədii tərtibat verdiyi filmlər: "Şərikli çörək", "Həyat bizi sınayır", "İstintaq", "Güllələnmə təxirə salınır!" və s.

**10 dekabr 1996** – Əməkdar incəsənət xadimi, şair, dramaturq İsgəndər Coşqun (İsgəndər Məhəmməd oğlu Hümmətov; 1927-1996) vəfat edib. "Gəmidə söhbət", "Qığılcımlar", "Nəğmə dolu ürək" və s. kitabların müəllifidir.

**11 dekabr 1918** – Xalq yazıçısı, Dövlət mükafatı laureatı Bayram Salman oğlu Bayramov (1918 – 9.11.1994) Ağdam rayonunun Şıxavənd kəndində anadan olub. "Yarpaqlar", "Arakəsmələr", "Karvan yolu", "Tək palıdın kölgəsi" və s. romanların müəllifidir. "Mən ki gözəl deyildim", "Firəngiz", "Onun bəlalı sevgisi" filmlərinin ssenarisini yazıb.

**11 dekabr 1933** – Görkəmli yazıçı-dramaturq, publisist Əbdürrəhim bəy Əsəd bəy oğlu Haqverdiyev (17.5.1870 – 1933) vəfat edib. "Dağılan tifaq", "Bəxtsiz cavan", "Pəri cadu" və s. pyeslərin müəllifidir. Teatr tamaşalarına quruluş verib. Bakı Dövlət Universitetində dərs deyib.

**11 dekabr 1972** – Əməkdar artist Müxlis Sabir oğlu Cənizadə (26.11.1928 – 1972) vəfat edib. Musiqili Komediya, Akademik Dram teatrlarında çalışıb. "Dəli Kür", "Yenilməz batalyon" və s. filmlərdə çəkilib, filmlərin səsləndirilməsində iştirak edib.

**11 dekabr 2002** – Moskvada, İttifaqlar Evinin Sütunlu salonunda Azərbaycan və Rusiya incəsənət ustalarının iştirakı ilə görkəmli bəstəkarlar Fikrət Əmirovun 80, Niyazinin 90 illiyinə həsr olunmuş konsert keçirilib.

**12 dekabr 1926** – Əməkdar mədəniyyət işçisi Aşıq Pənah (Əlipənah Ələsgər oğlu Pənahov; 1926 – 26.8.1978) Salyan rayonunda doğulub. Salyan Dram Teatrında çalışıb. "Kür" aşıqlar ansamblını yaradıb.

**12 dekabr 1927** – Əməkdar mədəniyyət işçisi Alp Məcid oğlu Ağamirov (1927-2000) anadan olub. Azərbaycan Televiziyasında baş redaktor işləyib.

**12 dekabr 1931** – Tanınmış aktyor Talət Əliağa oğlu Rəhmanov (1931 – 13.11.1995) Bakıda anadan olub. "Arşın mal alan" (1965), "Qayınana", "Kişi sözü" və s. filmlərdə çəkilib.

**12 dekabr 1936** – Əməkdar rəssam Qüdrət Hacıbəy oğlu Məmmədov (1936 – 20.2.2021) Şəki şəhərində anadan olub. Uzun illər Şəki Dövlət Dram Teatrının baş rəssamı işləyib.

**12 dekabr 1937** – Şair, tərcüməçi Əhəd Muxtar (Əhədulla Muxtar oğlu Qənbərov; 1937 – 23.5.1998) Astara rayonunun Kakalos kəndində anadan olub. Rus, özbək, qazax, türkmən şair və yazıçılarının əsərlərini Azərbaycan dilinə çevirib.

**12 dekabr 1939** – Əməkdar incəsənət xadimi, kinorejissor Fikrət Balağa oğlu Əliyev (1939-2016) Bakıda anadan olub. "Baladadaşın ilk məhəbbəti", "Qızıl uçurum", "Yuxu", "Axırıncı dayanacaq", "Ölüm növbəsi" filmlərinə quruluş verib.

**12 dekabr 2002** – Xalq şairi Cabir Novruz (Cabir Mirzəbəy oğlu Novruzov; 12.3.1933 – 2002) vəfat edib. Şeirlərinə populyar mahnılar ("Cavanlığım", "Ey həyat, sən nə qəribəsən", "Tələbəlik illəri" və s.) bəstələnib.

**12 dekabr 2007** – Xalq yazıçısı Hüseyn Abbas oğlu Abbaszadə (22.11.1922 – 2007) vəfat edib. Əsərləri: "General", "Burulğanlar", "Ləpədöyəndə", "Çəmbərəkənd balladası" və s.

### Dünya

**9 dekabr 1048** – Türk (özbək) astronomu, coğrafiyaşünas, ensiklopediyaçı alim Əl-Biruni (Əbu Reyhan Məhəmməd ibn Əhməd əl-Biruni; 4.9.973 – 1048) vəfat edib.

**9 dekabr 1717** – Alman sənətşünası, antik incəsənət tədqiqatçısı, arxeologiya elminin banilərindən biri Yohann İoakim Vinkelman (Johann Joachim Winckelmann; 1717–1768) anadan olub.

**10 dekabr 1821** – Rus şairi, yazıçı və publisist Nikolay Alekseyeviç Nekrasov (1821 - 8.1.1878) anadan olub. "Rusiyada kim yaxşı yaşayır", "Rus qadınları", "Şaxta, Qırmızıburun", "Kəndli uşaqları" və s. poemaların müəllifidir.

**10 dekabr 1890** – Başqırd şərqşünası və türkoloqu, filosof, ictimai-siyasi xadim Əhməd Zəki Validi Toğan (1890 – 28.7.1970, Türkiyə) anadan olub.

**11 dekabr 1803** – Fransız bəstəkarı Hektor Berlioz (Louis-Hector Berlioz; 1803 – 8.3.11869) anadan olub. Əsərləri: "Fantastik simfoniya", "Benvenuto", "Çellini" operaları və s.

**11 dekabr 1890** – Argentina müğənnisi, aktyor, tanqo rəqqası Karlos Qardel (Carlos Gardel; 1890-1935) anadan olub. Onun şərəfinə 11 dekabr bir sıra ölkələrdə "Beynəlxalq tanqo günü" kimi qeyd olunur.

**11 dekabr 1913** – Fransız aktyoru Jan Mare (Jan Alfred Villen-Mare; 1913 – 8.11.1998) anadan olub. "Bəyaz gecələr", "Qraf Monte-Kristo", "Parisin sirləri", "Dəmir maska" və s. filmlərdə yaddaqalan rollar yaradıb.

**11 dekabr 1918** – Rus yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı (1970) laureatı Aleksandr İsayeviç Soljenitsın (1918 – 3.8.2008) anadan olub. 1945-1953-cü illərdə həbsdə, sonra Sibirdə sürgündə olub. 1973-cü ildə ABŞ-yə mühacirət edib, 1994-cü ildə Rusiyaya qayıdıb. "Xərçəng korpusu", "Birinci dairədə", "Qırmızı təkər" və s. romanların müəllifidir.

**12 dekabr 1821** – Fransız yazıçısı Qustav Flober (Gustave Flaubert; 1821 – 8.5.1880) anadan olub. "Madam Bovari", "Salambo", "Hisslərin tərbiyəsi" və s. romanların müəllifidir.

**12 dekabr 1863** – Norveç rəssamı Edvard Munk (Edvard Munch; 1863-1944) anadan olub.

**12 dekabr 1915** – Amerikalı müğənni, aktyor Frenk Sinatra (Francis Albert Sinatra; 1915 – 14.5.1998) anadan olub.

**12 dekabr 1928** – Dünyaca məşhur qırğız yazıçısı Çingiz Aytmatov (1928 – 10.6.2008) anadan olub. "Cəmilə", "Əlvida, Gülsarı!", "Üzüzə", "Torpaq ana", "Ağ gəmi", "Əsrə bərabər gün", "Edam kötüyü", "Dağlar düşəndə" və s. əsərlərin müəllifidir.

**Hazırladı: V.Orxan**

# Bakı səhnəsi hələ belə xor görməmişdi

Heydər Əliyev Sarayında Azərbaycan və Rusiyanın xor kollektivlərinin, eləcə də solistlərin və Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı orkestrinin iştirakı ilə möhtəşəm konsert təşkil olunub.

Dekabrın 2-də təqdim olunan proqramda Karl Cenkinsin xor, solistlər və simfonik orkestr üçün "Sülh duası" ("Sülh messası") oratoriyasını səslənib. Konsert Heydər Əliyev Sarayı və Opera və Balet Teatrının təşkilatçılığı, Bakıdakı Rus Evinin dəstəyi ilə təşkil olunub.

Konsertdə Xalq artisti Gülbacı İmanovanın rəhbərliyi altında Azərbaycan Dövlət Xor Kapellası, Boris Tarakanovun rəhbərliyi altında D.İ.Mendeleyev adına Rusiya Kimya-Texnologiya Universitetinin akademik böyük xoru və Moskva Metropoliteninin akademik xoru, Rusiyanın Əməkdar artisti Tatyana Jdanovanın rəhbərliyi altında "Vozrojdenie" ("Dirçəliş") akademik xoru, Olqa Ostrovskayanın rəhbərliyi altında "Uvertüra" kamera xoru, habelə Kristina Əfəndiyevanın rəhbərliyi altında Bakıdakı Müqəddəs Arxangel Mixail məbədinin xoru çıxış ediblər. Azərbaycan və Rusiyanın xor kollektivlərinin bir araya gəlməsi D.İ.Mendeleyev adına RKTU-nun mədəni təşəbbüsü olan Mendeleyev Xor Konqres-Festivalının birləşmiş xor ideyası ilə reallaşıb.



Akademik Opera və Balet Teatrı orkestrinin müşayiət etdiyi konsertdə solist qismində Fatma Səfərzadə (soprano, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı) və Pavel Artyomov (tenor, Moskva Metropoliteninin akademik xoru) çıxış ediblər. Konserti Xalq artisti, dirijor Yalçın Adıgözəlov idarə edib. Layihənin müəllifi və baş xormeysteri Boris Tarakanovdur.

Britaniyalı bəstəkar və instrumental ifaçı K.Cenkinsin (Karl William Jenkins) "Sülh duası" oratoriyası multikultural dəyərlər və sivilizasiyalararası dialoqu, müharibələr əleyhinə çağırış ideyasını təcəssüm etdirən musiqi əsəridir. Müəllif bu əsəri 1999-cu ildə yeni minilliyin gəlişi münasibətilə Britaniya Kral Silah Muzeyinin sifarişi əsasında yazıb. Üç səmavi dinin (Xristianlıq, Yəhudilik, İslam) motivləri üzərində qurulan oratoriya poetikləşmiş müharibənin təsviri ilə başlayır, tədricən müharibənin dəhşətlərini, ölümün apofeozunu təsvir etməyə keçir. Oratoriyada katolik messası ilə yanaşı, azan və təkbir səsləri də yer alıb.

## Dünyanın dörd yanını internet zolağı sarıyacaq




**Dünyanın ən zəngin insanlarından sayılan İlon Maskın "SpaceX" kompaniyasının "Falcon 9" daşıyıcı raketi dekabrın 7-də qlobal internet şəbəkəsinin orbital qruplaşması üçün nəzərdə tutulan daha 23 ədəd "Starlink" peykini orbitə çıxarıb.**

Bu, 2019-cu ildən bəri internet peyklərinin orbitə çıxarılan sayca 128-ci, cari ildə isə 59-cu qrupudur. "SpaceX" indiyədək kosmik fəzaya ümumilikdə 5,5 mindən çox peyk buraxıb. Onların 5,1 mindən çoxu işlək vəziyyətdədir.

Kompaniyanın layihəsi olan "Starlink" internet şəbəkəsi dünyanın 62 ölkəsində istifadəçilər üçün əlçatandır.

Dünyanın ən böyük peyk operatoru olan "SpaceX" orbitə ümumilikdə 12 minə yaxın kosmik aparat çıxarmaq niyyətindədir. Təxminən 10 milyard dollara başa gələcək layihə planetin istənilən guşəsində genişzolaqlı internetə çıxışı təmin etməyə imkan yaradacaq. Kompaniya növbəti mərhələdə orbital qruplaşmadakı kosmik aparatların sayını 30 minə çatdırmağı planlaşdırır.

## Yeri silkələyən müğənni...

### "Time" jurnalı Teylor Sviftı "İlin adamı" elan edib

**Amerikanın "Time" jurnalı 2023-cü il üçün "İlin adamı"nı elan edib. Bu dəfə siyasi liderləri, qlobal proseslərə təsir imkanları olan şəxsiyyətləri bir kənara qoyan nəşr amerikalı müğənni Teylor Sviftı bu ada layiq görüb.**




Qeyd edək ki, "Time" jurnalının ənənəvi "İlin adamı" seçimi üçün qısa siyahıda bu il Rusiya Prezidenti Vladimir Putin, Britaniya Kralı III Çarlz, Çin lideri Si Cinpin, CHatGPT süni intellekt proqramının tərtibatçısı Sem Altman, hətta eyniadlı filmdən Barbi kuklası da vardı.

"Bu, mənim indiyə qədər yaşadığım ən qürurlu, ən xoşbəxt, ən yaradıcı şəkildə yerinə yetirilən və azad hissdir", – deyə 33 yaşlı Teylor Svift nəşrə açıqlamasında bildirib.

Jurnalistlər onun musiqi karyerasını miqyasına görə Elvis Presli, Maykl Cekson kimi ulduzlarla müqayisə edirlər. "Time" jurnalının baş redaktoru Sem Cekobs qeyd edib ki, dünyada 8 milyard insanı təcəssüm etdirə biləcək bir nəfəri seçmək asan məsələ deyil. Nəticədə sevinc və dünyaya işıq təcəssüm etdirən bir nəfər üzərində dayandıq.

2023-cü ildə Teylor Sviftin dünya turu konsertlərinə 4,1 milyon bilet satılıb. Onun hər konsertinə orta hesabla 54 min tamaşaçı gəlib. Müğənninin iyul ayında Sietl şəhərindəki (Vaşinqton ştatı) stadionda 144 min tamaşaçının izlədiyi konserti hətta lokal zəlzələ effekti yaratmışdı. Konsertdə güclü səs sisteminin dalğaları və on minlərlə pərəstişkarının eyni anda rəqs etməsi 2,3 bal gücündə seysmik aktivliyə səbəb olmuşdu.

Gələn ilin avqustuna qədər davam edəcək "The Eras Tour" konsertlərinin müğənniyə ümumilikdə 1,4 milyard dollar gəlir gətirəcəyi gözlənilir.

Qeyd edək ki, "Time" jurnalı 1927-ci ildən etibarən "İlin adamı"nı seçir. Bu ada ilk dəfə həmin il Atlantik okeanı üzərindən təkbaşına uçuş həyata keçirən amerikalı təyyarəçi Çarlz Lundberq layiq görülmüşdü. Müxtəlif vaxtlarda Mahatma Qandi (1930), Franklin Ruzvelt (1932), Adolf Hitler (1938), İosif Stalin (1939, 1942), Uinston Çörçill (1940), Nikita Xruşşov (1957), Ayətullah Xomeyni (1979), Ronald Reyqan (1980), Mixail Qorbaçov (1987), Vladimir Putin (2007), Angela Merkel (2015) kimi siyasi liderlər "Time" tərəfindən "İlin adamı" seçiliblər. 2021-ci ildə İlon Mask, 2022-ci ildə isə Ukrayna Prezidenti Volodimir Zelenski bu sırada yer almışdı.

## Van gölünün suyu çəkilir, tarix ortaya çıxır

**Qlobal iqlim dəyişikliyi, quraqlıq hər ötən il özünü daha da aydın göstərir. Quraqlıq səbəbindən Türkiyənin ən böyük su hövzəsi olan Van gölünün (3 713 kv.km) də suyu sürətlə çəkilir.**



Gölün sahillərində illər əvvəl su səviyyəsinin qalxması səbəbindən göldə görünməz olan tikililər gün üzünə çıxır. Vaxtilə Gevaş səmtindəki Səlcuqlu qəbiristanlığındakı daşlardan daşınaraq inşa edilən, ancaq zamanla su altında qalan estakada yenidən görünməyə başlayıb.

Van Muzey Müdirliyinin mütəxəssislərdən ibarət qruplar tərəfindən Səlcuqlu dövrünə aid ümumilikdə 35 məzar daşı sudan çıxarılıb. Mütəxəssislərin fikrincə, tarixi daşlar Bitlis vilayətinin Ahlat rayonu ərazisindəki Səlcuqlu məzarlığından 1930–1940-cı illərdə bura gətirilib və estakadanın tikintisində istifadə olunub.

Yazıları və ənənəvi motivləri ilə diqqəti çəkən 2 metr uzunluğu olan məzar daşları artıq muzeyə köçürülüb. Üzərində yaranmış təbəqə təmizləndikdən sonra daşlar yenidən Səlcuqlu qəbiristanlığında qoyulacaq.

Qeyd edək ki, ən böyük türk-islam məzarlığı hesab edilən bu məkan 1200-cü ildə yaranıb. Səlcuqlu məzarlığında 8200 ədəd ərəb əlifbası ilə yazılı, qabartma və oyma üsulu ilə işlənmiş daş mövcuddur.

Xatırladaq ki, Türkiyənin "Ahlat ənənəvi daş ustalığı" milli nominasiyası 2022-ci ildə UNESCO-nun Təcili Qorunmaya Ehtiyacı olan Qeyri-Maddi Mədəni İrs Siyahısına daxil edilib.

## İtaliya "Bir kəmər, bir yol" təşəbbüsündən çıxıb

**İtaliya Çin tərəfindən irəli sürülən və tarixi İpək Yolu üzərində ticarəti böyük layihələrlə canlandırmaq məqsədi daşıyan "Bir kəmər, bir yol" təşəbbüsündən çıxıb.**



İtaliya hökuməti bununla bağlı Çinin Romadakı səfirliyinə rəsmi məktub göndərib. Sənəddə İtaliyanın "Bir kəmər, bir yol" təşəbbüsündə iştirakını uzatmayacağı bildirilib.

Qeyd edək ki, İtaliya "Bir kəmər, bir yol" təşəbbüsünə qoşulan ilk və yeganə G7-yə üzv ölkə idi. Baş nazir Ciorcia Meloni bir qədər əvvəl ölkəsinin "Bir kəmər, bir yol" təşəbbüsündən çıxacağını nəzərdən keçirdiyini demişdi.

Qeyd edək ki, bu ilin oktyabrında Pekində keçirilən "Bir kəmər, bir yol" təşəbbüsü üzrə üçüncü forumda yüzdən çox ölkə təmsil olunub. Forum çərçivəsində keçirilən biznes-konfransın iştirakçıları ümumilikdə 97,2 milyard dollarlıq sazişlər imzalayıblar.

Çin Xalq Respublikasının Sədri Si Cinpin bildirib ki, ölkəsi "Bir kəmər, bir yol" təşəbbüsü üzrə "yaşıl" infrastruktur, "yaşıl" energetika və "yaşıl" nəqliyyat kimi sahələrdə əməkdaşlığı dərinləşdirməyə davam edəcək.

"Bir kəmər, bir yol" təşəbbüsü tarixi İpək Yolunun dirçəldilməsi istiqamətində əsas marşrut ("Orta dəhliz") sayılır. Azərbaycan da "Bir kəmər, bir yol" təşəbbüsünün iştirakçısıdır.

## Planetimizdən 60 dəfə böyük

**Günəşin səthində nəhəng qaranlıq dəlik açılıb və Yer kürəsinə doğru radioaktiv dalğalar yayır. Spaceweather.com saytının yaydığı məlumata görə, qaranlıq boşluğun ölçüsü Yer kürəsindən 60 dəfə böyükdür. Tac dəliyi kimi tanınan nəhəng qaranlıq bölgə dekabrın 2-də Günəşin ekvatoru yaxınlığında yaranıb və təxminən 800 min kilometr genişliyə çatıb.**



Bu cür müvəqqəti dəliklər Günəşdəki maqnetizm qəfil dəyişdikdə əmələ gəlir. Bu isə nəticədə radioaktiv plazma hissəciklərinin kosmosda hərəkət edərək Yerə çatmasına səbəb olur. Bu vəziyyətdə hərəkət edən hissəciklərə "Günəş fırtınası" deyilir.

Bu ilin mart ayında Günəşdə müşahidə edilən sonuncu tac dəliyi Yer kürəsində son illərin ən güclü geomaqnit qasırğasına səbəb olmuşdu. Yeni dəliyin ulduzda nə qədər qalacağı məlum deyil. Bundan öncə tac dəlikləri bir aya yaxın davam edib.




Olaylar, faktlar (8–11 dekabr)

**10 dekabr** dünyada İnsan Haqları Günü kimi qeyd olunur. 1948-ci il dekabrın 10-da BMT-nin Baş Assambleyasında "İnsan haqları haqqında Bəyannamə" qəbul olunub. Bu, insan hüquq və azadlıqları sahəsində beynəlxalq səviyyəli ilk fundamental sənəd idi.

### 228 il əvvəl...

**9 dekabr 1795-ci ildə** general Savelyevin başçılıq etdiyi çar Rusiyası qoşunları Dərbənd istiqamətində Azərbaycan ərazisinə soxulub. Ruslar bir ay ərzində Gəncəyədək irəlilədikdən sonra geri qayıdıblar. 1796-cı ilin yazında general V.Zubovun başçılığı altında rus qoşunları Dərbəndi ələ keçirdilər. Bu, Azərbaycan torpaqlarının Rusiya imperiyası tərəfindən işğalına (1801-1828) hazırlıq yürüşləri idi.

### 125 il əvvəl...

**10 dekabr 1898-ci ildə** Parisdə İspaniya-ABŞ müharibəsinin yekunlarına dair sülh sazişi imzalanıb. İspaniyanın Sakit okean və Karib hövzəsindəki müstəmləkələri – Kuba, Puerto-Riko, Quam, Filippin ABŞ-ın nəzarətinə keçdi. Birləşmiş Ştatlar bu ərazilərin əvəzində İspaniyaya o vaxtın pulu ilə 20 milyon dollar ödədi.

### 122 il əvvəl...



**10 dekabr 1901-ci ildə** ilk Nobel mükafatları laureatlara təqdim edilib. Stokholmda İsveç Kralı tərəfindən fizika (Konrad Rentgen, Almaniya), kimya (Yakob Hendrik Van Qoff, Niderland), biologiya (Emel Adolf Berinq, Almaniya), ədəbiyyat (Fransua Arman Sülli-Prüdom, Fransa) üzrə mükafatları, Osloda isə Norveç Kralı tərəfindən Nobel sülh mükafatı ("Qızıl xaç" hərəkatının banisi Anri Jan Dünan (İsveçrə) və fransız Frederik Passi) təqdim olunub.

### 109 il əvvəl...

**9 dekabr 1914-cü ildə** Birinci Dünya müharibəsi gedişində Rusiya və Osmanlı qoşunları arasında ilk irimiqyaslı toqquşma – Sarıqamış döyüşü başlanıb. 5 yanvar 1915-ci ilədək davam edən döyüşdə türk qoşunlarının məğlubiyyəti rus qoşunlarının həmin il ölkənin şimal-şərq bölgələrini işğal etməsinə imkan yaratdı.

### 75 il əvvəl...

**9 dekabr 1948-ci ildə** BMT-nin Baş Assambleyası "Genosid cinayətləri və onun cəzalandırılması haqqında" beynəlxalq konvensiya qəbul edib. Konvensiya soyqırımı cinayətlərinə qarşı qəbul edilən ilk beynəlxalq sənəddir.

### 32 il əvvəl...

**8 dekabr 1991-ci ildə** Belarusun Brest şəhəri yaxınlığındakı "Belovejskaya puşşa" qoruğundakı "Viskuli" hökumət iqamətgahında Rusiya, Ukrayna və Belarusun rəhbərləri Boris Yeltsin, Leonid Kravçuk və Stanislav



Şuşkeviç "Müstəqil Dövlətlər Birliyinin yaradılması haqqında" bəyanat imzalayıblar. Həmin sənədlə SSRİ-nin təşkilinə dair 1922-ci il 30 dekabr tarixli ittifaq müqaviləsi xitam verilib. Dekabrın 21-də 11 sovet respublikasının rəhbərləri Almatıda toplanaraq MDB-nin təsis olunması barədə qərar qəbul etdilər. Baltikyanı respublikalar imtina etdilər, Gürcüstan isə 1993-cü ildə MDB-yə daxil oldu.

**9 dekabr 1991-ci ildə** İslam Əməkdaşlıq Təşkilatının Dakarda (Seneqal) keçirilən sammitində Azərbaycan Respublikası üzvlüyə qəbul edilib. Bu, müstəqil Azərbaycanın üzv olduğu ilk beynəlxalq təşkilat idi.

### 31 il əvvəl...

**10 dekabr 1992-ci ildə** Ermənistan silahlı qüvvələri Azərbaycanın Zəngilan rayonunun sərhədyanı kəndlərinə hücum edib. Üç gün davam edən hücum nəticəsində 10-a yaxın kənd işğal olunub. 1993-cü ildə Ermənistan tərəfindən tamamilə işğal olunan rayonun ərazisi 2020-ci ilin Vətən müharibəsində azad edildi.

### 29 il əvvəl...

**10 dekabr 1994-cü ildə** Rusiyanın federal qoşun hissələri Çeçenistan ərazisinə daxil olub. Birinci Çeçenistan müharibəsi başlanıb. Rusiyanın müdafiə naziri Pavel Qraçov Kremli əmin etmişdi ki, dekabrın sonunadək bölgə tamamilə federal nəzarətə alınacaq. Lakin müharibə 1997-ci ilədək davam etdi. Həmin il müharibədə ateşkəs əldə edildi, Moskva Mashadov hökumətini tanıdı. Atəşkəs iki il sürdü və 1999-cu ilin sentyabrında ikinci Çeçenistan savaşı başlandı.

**Hazırladı: V.Orxan**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib,
"Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5053. **Sifariş:** 3264
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641